QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 113 (5833) **26 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir

*İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!"*



Səh 3

7



**Əli Əhmədov: "Aprel döyüşləri ordumuzun statusunu qəti olaraq təsdiq etdi"**

14



**Məhbusdan "SƏS" Media Qrupuna şok müraciət**

5



**Alia El Yassir: "BMT-nin Bakı Forumu dövlət xidmətlərinin daha səmərəli çatdırılmasına töhfə verəcək"**

# "Bu gün Azərbaycanda ictimai-siyasi sabitlik təmin olunub"

*Prezident İlham Əliyev Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ramil Usubovun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirdi. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə etdi və ona fəaliyyətində uğurlar arzuladı.

Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Daxili İşlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi olaraq vurğuladı. O, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəyini bildirdi.



# Monteneqronun Baş Naziri Heydər Əliyev Mərkəzi ilə tanış olub

***Monteneqronun Baş Naziri Duşko Markoviç iyunun 25-də Heydər Əliyev Mərkəzində olub.***



AZƏRTAC xəbər verir ki, qonağa Heydər Əliyev Mərkəzinin fəaliyyəti və Mərkəzin memarlıq incisi olan binası haqqında məlumat verilib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi Monteneqronun Baş Nazirinin marağına səbəb olub. Qonağın diqqətinə çatdırılıb ki, muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyətinə dair məlumatlar virtual şəkildə təqdim olunur.

Duşko Markoviç Mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq Monteneqronun Baş Naziri Duşko Markoviçdə xoş təəssürat yaradıb.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı rayonunun Qaraməryəm-İsmayıllı-Şəki (27 km)-Quşencə-Zoğallıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, üç min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki (27 km)-Quşencə-Zoğallıq avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir

*İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!"*

***Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu vardır.***

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir. Bu baxımdan, ölkəmizdə dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordunun formalaşdırılması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ həm də Azərbaycanın nizami ordusunun formalaşdırılması kimi əlamətdar olmuşdur. Təbii ki, Sovetlər Birliyi dövründə milli ordudan söz açmaq mümkün deyildi.

O dövrdə azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması Ulu Öndərin gələcəyə hesablanmış uzaqgörən siyasətinin tərkib hissəsi idi. Ötən əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşımışdır. Bundan başqa, Ulu Öndərin rəhbərliyi ilə gənclərimiz müxtəlif respublikalarda hərbi təhsil almış, ixtisaslı hərbçi kadrlar kimi formalaşaraq, vətənə qayıtmışlar. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun peşəkar komandan heyətini təşkil etmişdir.

"Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır" deyən Ümummilli Liderimizin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradılmış, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması da diqqət mərkəzində saxlanılmış, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulmuşdur. Bu gün artıq Silahlı Qüvvələrimizin sülhməramlıları müxtəlif münaqişə zonalarında öz missiyalarını uğurla yerinə yetirirlər.

Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində milli ordumuz davamlı olaraq inkişaf edir.

## "Əminəm ki, Azərbaycan gücləndikcə, ordumuz da güclənəcək"

"Bu gün Azərbaycan Ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə, nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Əminəm ki, Azərbaycan gücləndikcə, ordumuz da güclənəcək. Artıq ordumuz istənilən vəzifəni həll etməyə hazırdır" deyən ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanda müasir hərbi sənaye kompleksi yaradılmış, Silahlı Qüvvələrin maddi-texniki bazası müasir texnika və silahlarla zənginləşdirilmiş, bu sahədə kadr



hazırlığı təkmilləşdirilmişdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır.

## Ordu quruculuğu - son 16 illik uğurlu nəticələr

Məhz Prezident İlham Əliyevin son 16 illik uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsində müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait, artıq bir neçə ildir ki, ardıcıl olaraq, Ermənistanın ümumi dövlət büdcəsindən çoxdur. Bununla yanaşı, Müdafiə Sənayesi Nazirliyində 400 addan çox müdafiə təyinatlı məmulatın istehsal olunması ölkəmizin hərbi qüdrətinin artmasının bariz nümunələrindəndir.

Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hazırda güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və şəxsi heyətin döyüş ruhu yüksəkdir. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Bu gün orduda xidmət etməyə yaşı çatan hər bir Azərbaycan vətəndaşı, könüllü olaraq, torpaqlarımızın müdafiəsi uğrunda döyüşmək əzmində olduğunu nümayiş etdirir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Prezident İlham Əliyev hər çıxışında Azərbaycan Ordusunun gücünü və torpaqlarımızı azad etmək əzmində olduğunu xüsusi olaraq vurğulayır. Elə 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində də dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev ordu ilə bağlı mühüm mesajlar verdi: "Biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda, beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi və beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq."

## Azərbaycan Ordusu - dünyanın 50 ən güclü ordusu sırasında

Son 16 ildə ölkədə aparılan ardıcıl islahatlar və düşünülmüş daxili və xarici siyasət nəticəsində, Azərbaycan Cənubi Qafqaz regionunun ən nüfuzlu dövlətinə çevrilib. Müstəqilliyimizin, dövlətçiliyimizin qarantı olan və yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvən yeridir. Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu hazırda dünyanın 50 ən güclü ordusu sırasındadır.

"Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sıralarındadır. Aprel, Naxçıvan qələbələri bir daha ordumuzun və xalqımızın vətənpərvərlik ruhunu gücləndirir". Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev ordumuzun döyüş qabiliyyətinin hər ötən gün artdığını deyir. Xalq tam arxayın ola bilər ki, ordumuz istənilən vəzifəni yerinə yetirməyə qadirdir: "Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sıralarındadır. Güclü ordunun yaradılması üçün güclü iqtisadiyyatımız olmalıdır. Son 15 ildə Azərbaycan qədər iqtisadi sahədə inkişaf edən ölkə olmayıb. İqtisadiyyatımız 3,2 dəfə artıb. Azərbaycan bu gün iqtisadi baxımdan, özünü rahat hiss edir. Biz öz hesabımıza yaşayırıq və heç bir yerdən yardım almırıq. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran məqsədlərə yönəldirik. Bunların arasında ordu quruculuğu əsas yerdədir. 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artıb".

Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və digər müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, bu gün Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək qabiliyyətindədir. Həmin arsenalın bir hissəsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad zamanı nümayiş etdirildi.

## Düşmənə həmişə yerini göstərən Azərbaycan Ordusu

2016-cı ilin tarixi aprel döyüşü. Həmişə olduğu kimi, yenə də Azərbaycan Ordusu düşmənə öz yerini göstərdi. Belə ki, Ermənistan Silahlı Qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusu əks-hücumla cavab verməyə məcbur oldu. Prezident İlham Əliyev Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paraddakı çıxışında da bildirdi ki, Azərbaycan Ordusu döyüş meydanında öz gücünü və məharətini göstərib. "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində, işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır" deyə dövlətimizin başçısı vurğulayıb.

## Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə növbəti töhfə - Günnüt əməliyyatı...

Bütün döyüşləri qələbələrlə başa vuran Azərbaycan Ordusu Azərbaycan Silahlı qüvvələrinin 100 illiyinə daha bir töhfə Naxçıvandan oldu. Günnüt əməliyyatı... Əlahiddə Ümumqoşun Ordusunun bölmələri uğurlu əks-həmlə əməliyyatı ilə düşməni Şərur rayonunun işğal altındakı Günnüt kəndindən çəkilməyə məcbur etdi. "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Xunut dağı və Mehridağı azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Artıq bu yüksəkliklərdən İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yolu və bir neçə ətraf yaşayış məntəqəsinə nəzarət edə bilirik...

Bütün bunlar göstərdi ki, belə xəbərləri yenə eşidəcəyik. Müharibə hələ bitməyib. Nə qədər ki, əzəli-əbədi torpaqlarımız düşmən işğalı altındadır, Azərbaycan əsgəri silahını yerə qoymayacaq!

Bəli, bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun İlham Əliyev kimi Lider Prezidenti, Ali Baş Komandanı var. Həmçinin, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri vardır və işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkərək, Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməlidir, əks-təqdirdə, təcavüzkar Ermənistan qarşısında qüdrətli Azərbaycan Ordusunun gücünü bir daha görəcək!

**RƏFİQƏ KAMALQIZI**

# Birinci vitse-prezident Mehriban Əliyeva görkəmli alim Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak edib





***İyunun 25-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva görkəmli alim, Əməkdar jurnalist, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak etmək üçün paytaxtdakı Təzə Pir məscidinə gəldi.

Mehriban Əliyeva Şirməmməd Hüseynovun ailə üzvləri ilə görüşdü, Prezident İlham Əliyevin adından və öz adından onlara dərin hüznlə başsağlığı verdi.

# Görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov son mənzilə yola salınıb

***İyunun 25-də Bakı Dövlət Universitetində (BDU) görkəmli alim, BDU-nun mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müəllimi, professor, "Şərəf" ordenli Şirməmməd Hüseynovla vida mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Mərhumun cənazəsi Bakı Dövlət Universitetinin matəmsayağı bəzədilmiş böyük akt zalında postament üzərinə qoyulmuşdu.

Alimin tabutu önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulmuşdu. Cənazənin ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından da əklillər düzülmüşdü. Şirməmməd Hüseynovun həmkarları, dostları, tələbələri, tanınmış elm xadimləri axın-axın universitetin binasına gəlir, görkəmli alimə və gözəl insana son borclarını verirdilər.

Vida mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev deyib ki, bu gün Azərbaycan elmi, təhsili, ziyalı təbəqəsi üçün çox ağır gündür. Hamının yaxşı tanıdığı, hörmət bəslədiyi, sevdiyi Şirməmməd Hüseynovla vidalaşırıq. Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Ş.Hüseynovun zəngin yaradıcılıq yolu hamıya yaxşı məlumdur.









Rektor vurğulayıb ki, Ş.Hüseynovun həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Şirməmməd Hüseynov Vətənə ilk azərbaycanlı alim-jurnalist kimi dönüb. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirib. O, hər zaman tələbələrlə müəllimləri bir komanda kimi ətrafında birləşdirə bilib.

Şirməmməd Hüseynovun azərbaycançılıq ideologiyasının sadiq keşikçilərindən biri olduğunu bildirən rektor vurğulayıb ki, o, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının irsinin araşdırılmasında xüsusi xidmətlər göstərib. Daim həqiqətin, ədalətin, azad sözün tərəfdarı olub. Buna görə də təkcə elmi ictimaiyyətin deyil, sadə insanların da böyük hörmətini qazanıb.

BDU-nun jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli, akademik Vasif Babazadə, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov və Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək Şirməmməd Hüseynovu müəllimlər müəllimi kimi xarakterizə ediblər.

Bildirilib ki, Azərbaycan jurnalistlərinin müdrik ağsaqqalı, görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov uzun illər milli mətbuatımızın qatı açılmamış səhifələrini arxivlərdən çox böyük vətənpərvərliklə, tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb, üzə çıxararaq nəşr etdirib. Onun müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Bu nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin xəzinədir. Ədalətlilik, prinsipiallıq, qətiyyətlilik, nəciblik, xeyirxahlıq kimi insani keyfiyyətlər Şirməmməd Hüseynovun xarakterinə xas olan xüsusiyyətlər idi.

Şirməmməd Hüseynov "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsulzadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr", "Parlament hesabatları" və digər dəyərli kitabların və əsərlərin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitlərinin müəllifidir. Çoxsaylı kitabları içərisində "Parlament hesabatları" onun şah əsəri hesab edilir. Şirməmməd müəllim milli yaddaşımızın daşıyıcısı idi, öz əsərləri ilə Azərbaycanın dünəni və bu günü arasında mənəvi körpü yaradıb.

Xüsusi olaraq qeyd edilib ki, Prezident İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli Sərəncamına əsasən professor Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif edilməsi onun bu və digər xidmətlərinə verilən yüksək qiymətdir. Ailəsi adından çıxış edən Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Bakı Dövlət Universitetinin atası üçün müqəddəs məkan olduğunu və BDU-nu evi qədər sevdiyini söyləyib. Qeyd edib ki, Ş.Hüseynovun ömrünün 60 ili universitet ilə bağlı olub. O, Bakı Dövlət Universitetini Azərbaycanın kiçik modeli hesab edirdi.

Fərəh Əliyeva atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Vida mərasimi başa çatandan sonra görkəmli alimin ruhuna dualar oxunub və cənazəsi son mənzilə yola salınıb. Mərhum ikinci Fəxri xiyabanda torpağa tapşırılıb. Allah rəhmət eləsin.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çeçenistanın başçısı Ramzan Kadırovla görüşündən danışıb

***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Minskdə keçirilən II Avropa Oyunları çərçivəsində Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovla görüşündən danışıb.***

AZƏRTAC "Vestnik Kavkaza" agentliyinə istinadla xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikası və Çeçenistan Respublikası arasında ekologiya və ətraf mühitin mühafizəsi sahəsində yeni birgə layihələrin hazırlanıb həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

"Bizim aramızda qısa və təsadüfi görüş oldu. Ramzan Kadırov çox xoş, səmimi və pozitiv insandır" deyən Leyla Əliyeva Çeçenistanın başçısının bu görüşdən sonra özünün Vkontakte səhifəsində Azərbaycan haqqında yazdığı sözlərdən sevindiyini qeyd edib.

Leyla Əliyeva Çeçenistana səfər edəcəyinə ümidvar olduğunu bildirib. Heydər Əliyev Fondunun vitse-prezidenti qeyd edib: "Biz birlikdə bir çox sahələrdə, o cümlədən ekologiya və ətraf mühitin mühafizəsi üzrə xeyirxah işlər görə bilərik. Həmçinin himayəyə ehtiyacı olan uşaqlarla bağlı birgə fəaliyyət göstərmək olar. Ümidvaram ki, Heydər Əliyev Fondu adından həmin respublikaya səfərim və bu cür birgə layihələrdə iştirakım mümkün olacaq".

Heydər Əliyev Fondunun vitse-prezidenti əlavə edib: "Mən bilirəm ki, Çeçenistanda musiqiyə böyük qiymət verirlər, axı məhz musiqi dünyanı gözəlləşdirir. Ona görə də bu respublikada konsert də təşkil etmək olar".


https://vestikavkaza.ru/news/Leyla-Alieva-prokommentirovala-slova-Ramzana-Kadyrova-ob-Azerbaydzhane-EKSKLYUZIV.html

ВЕСТНИК КАВКАЗА | IN ENGLISH | Искать ...

Новости | Аналитика | Интервью | Статьи | Фото | Видео | Радио | Страны | Темы | BK.live | Персоны

Главная » Новости

**Лейла Алиева прокомментировала слова Рамзана Кадырова об Азербайджане (ЭКСКЛЮЗИВ)**

24 июн в 16:30

(с) страница Рамзана Кадырова Вконтакте

На полях Дня культуры Азербайджана в Ботаническом саду МГУ имени М. В. Ломоносова "Аптекарский сад" вице-президент Фонда Гейдара Алиева, председатель АМОР **Лейла Алиева** в беседе с корреспондентом "Вестника Кавказа" рассказала о встрече с главой Чечни **Рамзаном Кадыровым** на II Европейских играх в Минске.

"У нас была короткая, спонтанная встреча. Рамзан Кадыров – это очень приятный, искренний, позитивный человек", - сказала она, отметив, что рада тем словам об Азербайджане, которые после их встречи написал глава Чечни на своей странице в Вконтакте.

Также Лейла Алиева выразила надежду на то, что ей удастся совершить визит в Чечню. "Вместе мы можем сделать много добрых дел, в том числе, в сфере экологии и защиты окружающей среды. Также можно вместе работать с детьми, которые нуждаются в опеке. Надеюсь, что получится посетить республику от Фонда Гейдара Алиева и поучаствовать в подобных социальных проектах", - сообщила вице-президент Фонда Гейдара Алиева.

"Я знаю, что в Чечне ценят музыку, ведь музыка делает мир лучше. Поэтому возможно и организовать в республике концерт", - добавила Лейла Алиева.

ВИДЕО

Александр Чачия: жизненно необходимо сохранить память о Великой Отечественной войне

1 2 3 4 5 6 7 8

НОВОСТИ

Ребенок утонул в канале в Раздане — 25 июн в 10:05

В доме у жителя Нальчика изъяли крупную партию наркотического зелья — 25 июн в 10:02

Бурджанадзе похвалила Иванишвили — 25 июн в 10:01

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovla Minskdə keçirdiyi görüş haqqında Çeçenistan rəhbərinin Vkontakte səhifəsində bəhs edilib. Ramzan Kadırov vurğulayıb ki, Azərbaycan ən yaxın qonşu və Rusiya üçün dost ölkədir. O yazıb: "Dövlətlərimiz arasında bütün sahələrdə ən yaxın əlaqələr yaranıb və inkişaf edir. Bu, Rusiya və Azərbaycanın liderləri - prezidentlər Vladimir Putin və İlham Əliyevin böyük xidmətlərinin nəticəsidir. Mənimlə İlham Heydər oğlu arasında olduqca səmimi münasibətlər formalaşıb. Ona görə də Minskdə Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə görüşməyimə çox şad oldum. Leyla İlham qızı gözəl təhsilli, ziyalı qız kimi bütün həyatını dünyada xeyirxahlıq və şəfqət ideyalarının yayılmasına həsr edib və bu yolda böyük uğurlar əldə edib. O, İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisidir. Leyla İlham qızı şeirlər yazır, jurnal redaktorudur. Bütün bunlar Azərbaycanın dünyada müsbət imicinin yaranmasına kömək edir. Mən İlham Heydər oğlu ilə görüşlərimlə bağlı öz xatirələrimi minnətdarlıq hissi ilə bölüşdüm. Biz Azərbaycan və Çeçenistan arasında dostluq əlaqələrinə yeni təkan vermək barədə razılıq əldə etdik. Bu il Leyla İlham qızını Qroznıda qarşılamağa şad olacağıq, mədəni, idman və humanitar əlaqələri genişləndirəcəyik".

# Azərbaycan qadınları ictimai həyatın bütün sahələrində fəallıqları ilə seçilirlər

***Azərbaycanda qadınlara tarixən xüsusi hörmət, ehtiram olub və bu, indi də davam edir. Azərbaycan dövləti qadın hüquqlarının qorunması sahəsində fəaliyyətini davam etdirir və bu işdə böyük nailiyyətlər qazanılıb. AZƏRTAC xəbər verir ki, bu sözləri Baş Nazirin müavini Əli Əhmədov BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Alia El Yassir ilə görüşdə deyib.***

***Əli Əhmədov qeyd edib ki, bu gün Azərbaycan qadınları ictimai həyatın bütün sahələrində fəallıqları ilə seçilirlər.***



Alia El Yassir Bakıda BMT-nin Dövlət Xidmətləri Forumunun yüksək səviyyədə təşkili üçün Azərbaycan Hökumətinə minnətdarlığını bildirib. Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən qonaq BMT ilə Azərbaycan Hökuməti arasında əlaqələrin inkişaf etməsinin nəticəsi olaraq bu kimi səfərlərin mütəmadi hal alacağına əmin olduğunu deyib.

# Alia El Yassir: "BMT-nin Bakı Forumu dövlət xidmətlərinin daha səmərəli çatdırılmasına töhfə verəcək"

***BMT-nin Dövlət Xidmətləri Forumunun yüksək səviyyədə təşkili üçün Azərbaycan hökumətinə minnətdarlığımı bildirirəm. Düşünürəm ki, forum bu istiqamətdə müzakirələrin davam etdirilməsi üçün möhtəşəm təcrübədir. Forumda aparılan fikir mübadiləsinin dövlət xidmətlərinin daha səmərəli çatdırılmasına töhfə verəcəyinə inanıram.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya Regionu üzrə direktoru Alia El Yassir jurnalistlərə açıqlamasında deyib.

"Azərbaycana ilk dəfədir səfər edirəm. Bakının çox yerini gəzməyə hələ vaxtım olmayıb. Lakin ilk təəssüratlarım çox xoşdur. Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl məkanlarından biridir. Azərbaycandan çox yaxşı xatirələrlə geri dönəcəyəm və öz ölkəmdə bu barədə danışacağam. BMT-nin dövlət xidmətləri üzrə mükafatına layiq görülən ölkələri təbrik edir, forumun işinə uğurlar arzulayıram", - deyə Alia El Yassir qeyd edib.



**Şirməmməd Ağaməmməd oğlu Hüseynov**

***Azərbaycan jurnalistikasına ağır itki üz vermişdir. Görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar jurnalist, Bakı Dövlət Universiteti Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Şirməmməd Ağaməmməd oğlu Hüseynov 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat etmişdir.***

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olmuşdur. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirmiş, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxumuşdur. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil almışdır. Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olmuş, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olmuş, 1988-ci ildən isə həmin kafedranın professoru vəzifəsində çalışmışdır.

Elmi fəaliyyətini, əsasən, Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra mükafatlara layiq görülmüş, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunmuşdur. Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

İlham Əliyev
Mehriban Əliyeva
Novruz Məmmədov
Oqtay Əsədov
Ramiz Mehdiyev
Əli Əhmədov
Əli Həsənov
Eldar Əzizov
Ceyhun Bayramov
Akif Əlizadə
Aslan Aslanov
Elçin Babayev
Əflatun Amaşov
Cahangir Məmmədli

# Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin 10 illiyi münasibətilə Mədəniyyət Günü keçirilib

***İyunun 24-də Moskvada Azərbaycan Mədəniyyəti Günü keçirilib. Tədbir Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGB) tərəfindən bu qurumun 10 illiyi münasibətilə təşkil edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyeva tədbirdə iştirak edib.***









AZƏRTAC xəbər verir ki, Azərbaycan Mədəniyyəti Günü Moskvanın ən mənzərəli guşələrindən birində - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Aptekarski oqorod" Nəbatat bağında keçirilib.

RAGB-nin sədri Leyla Əliyeva Azərbaycan Mədəniyyəti Gününün təntənəli açılış mərasimində çıxış edib. Leyla Əliyeva mərasim iştirakçılarını təşkilatın 10 illik yubileyi münasibətilə təbrik edərək deyib: "Çox xoşdur ki, bugünkü tədbir dünyanın ən gözəl bağlarından birində - MDU-nun Nəbatat bağında keçirilir. Bu bağı belə ecazkar edən nədir? Bu, Aleksey Reteyumun rəhbərlik etdiyi bütün kollektivin bitkilərə sevgi ilə qulluq etməsidir. Sevgi dünyanın bəzəyidir, onu daha xeyirxah, daha ədalətli və başlıcası, həqiqi edir. Buna görə də mənə xüsusilə xoşdur ki, Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) sevgi deməkdir. Bu isə öz növbəsində o deməkdir ki, biz həmişə beləcə nurlu, xeyirxah və güclü olacağıq".

RAGB sədri bildirib ki, birlik 10 il ərzində çox böyük işlər görüb. Rusiya Federasiyasının 49 regionunda bu təşkilatın Azərbaycan gənclərinin 2500-dən çox təşəbbüskar və kreativ nümayəndələrini birləşdirən 55 bölməsi fəaliyyət göstərir. Leyla Əliyeva deyib: "Bizim faydalı layihə və tədbirlərimiz çoxdur, məsələn, RAGB-nin hər il keçirilən "Gələcəyə addım" və "İxtisas qazanılmasına kömək" mövzularında payız və qış liderlik məktəbləri. Bundan əlavə, RAGB gənclərin və tələbələrin 2017-ci ildə Soçidə keçirilmiş XIX Ümumdünya festivalının iştirakçısı olub. RAGB-nin bu tədbirdə iştirakı bizim işimizə verilən yüksək qiymətdir. Festival təcrübə və ideyalar mübadiləsi, yeni tanışlıqlar və dostluq əlaqələri qurulması üçün gözəl məkandır. Siz hər hansı şəxslə yalnız üzbəüz ünsiyyətdə olarkən onu tanıya, onun haqqında həqiqəti öyrənə bilərsiniz. Bu, həm də bizim gənclərin Azərbaycanın zəngin, qədim mədəniyyətini, tarixini və ənənələrini təbliğ etmək üçün bir fürsətidir".

RAGB sədri vurğulayıb ki, Azərbaycan ilə Rusiyanı ortaq tarix, mədəniyyət, habelə iki xalq arasında ənənəvi dostluq telləri birləşdirir. O deyib: "Azərbaycanda böyük rus mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına və poeziyasına dərin sevgi ilə yanaşırlar. Çox sevindirici faktdır ki, bizim gənclər Rusiya cəmiyyətinə inteqrasiya edir və eyni zamanda, öz ənənəvi köklərini qayğı ilə qoruyub saxlayırlar. RAGB-nin başlıca vəzifəsi xeyirxah və faydalı işlər görməkdir. Biz artıq neçə ildir ki, "Qanın milləti yoxdur" adlı təmənnasız qanvermə aksiyaları keçirir, təhsil əlaçılarını dəstəkləyir və həvəsləndirir, Rusiyada keçirilən peşə müsabiqələrində iştirak edir, "Nə? Harada? Nə vaxt?", Şən və Hazırcavablar Klubu (ŞHK) kimi populyar intellektual oyunlar təşkil edir, uşaq evlərinə, qocalar evlərinə baş çəkir, ehtiyacı olanların hamısına kömək əlimizi uzadırıq".

Leyla Əliyeva vurğulayıb ki, Birliyin üzvləri sağlam həyat tərzinə xüsusi diqqət yetirməlidirlər. O deyib: "Təbiətin qoynunda çoxlu vaxt keçirən, sağlam qida qəbul edən, siqaret çəkməyən, idmanla məşğul olan, hərəkətdə olan, ən başlıcası, öz beynini mənfi informasiya və fikirlərlə doldurmayan insanın həkimə ehtiyacı olmayacaq, belə insan həmişə sağlam olacaq. Artıq neçə ildir ki, RAGB mini-futbol üzrə çempionat, Heydər Əliyev adına Kubok, RAGB Universiadası, idman oyunları və turizm toplantıları keçirir. Rusiyalı gənclər bizim bütün tədbirlərdə məmnuniyyətlə iştirak edirlər və buna görə mən sizə çox təşəkkür edirəm. Əminəm ki, bizim dostluğumuz daha da möhkəmlənəcək".

Bəşəriyyətin gələcəyinin bir sıra ekoloji problemlərin həllindən asılı olduğunu vurğulayan Leyla Əliyeva deyib: "Təbiət çoxdandır ki, bizə siqnal verir, bizim onu müdafiə etməyimizə çox ehtiyac var. Yer kürəsi bizim ümumi evimizdir, buna görə də planetimizin qorunub saxlanması və abadlaşdırılması məsələsi birgə həll edilməlidir. Soçidə bəbirlərin populyasiyasının bərpası mərkəzi ilə bizim ekoloqların birgə səyləri buna misaldır. Mən çox ümidvaram ki, biz vəhşi heyvanların bu nadir növünü qoruyub saxlamaq üçün əlimizdən gələni edə biləcəyik. Bizim IDEA Beynəlxalq kampaniyamız Həştərxanda körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması üzrə ekoloji tədbirdə iştirak edib. Çox ümid edirəm ki, biz ən qədim və maraqlı heyvanlardan biri olan Xəzər nərəsinin populyasiyasını bərpa edə biləcəyik. Bu yaxınlarda biz Vyaçeslav Fetisovla birlikdə Azərbaycanda nərə balıqlarını Xəzər dənizinə buraxdıq. İnsan bunu öz əli ilə edəndə keçirdiyi hissləri sözlə ifadə etmək çətindir".

RAGB sədri ümidvar olduğunu bildirib ki, birliyin üzvləri ağacəkmə aksiyası keçirəcəklər. O deyib: "Bu günə qədər IDEA Azərbaycanda 5 milyondan çox ağac əkib. IDEA suya qayğıkeş münasibət və plastik tullantıların ətraf mühitə təsiri mövzusunda seminarlar keçirir. Ən başlıcası, hər birimiz yadda saxlamalıyıq ki, əgər biz öz həyat tərzimizə bəzi dəyişikiliklər etsək, onda özümüz təbiətin və planetin qorunmasına çox böyük töhfə verə bilərik".

Leyla Əliyeva vurğulayıb ki, RAGB-nin qapıları milliyyətindən, dini etiqadından və yaşından asılı olmayaraq hər kəsin üzünə həmişə açıqdır. RAGB sədri sonda deyib: "Bu qapılar xeyirxah işlər görməyi, dünyamızın daha parlaq və daha yaxşı olmasını arzu edən hər kəs üçün açıqdır. Biz bir insana yaxşılıq edəndə, ilk növbədə, özümüzə hədiyyə edirik. Arzum budur ki, biz həmişə birlikdə olaq və dostluğumuzu genişləndirək. Ən başlıcası, hər birimiz özümüzə inanaq, öz qəlbimizin səsini eşidək, heç vaxt ümidsizliyə qapılmayaq və ruhdan düşməyək. Yadda saxlayın, səhvlər onun üçündür ki, biz daha yaxşı olaq, axı həqiqətən, səhv etməyən insan irəliyə getmir. Özünüzə, bizə, yaxşılığa, işığa, sevgiyə inanın. Həyata inanın, çünki bu, bizim malik olduğumuz ən qiymətli nemətdir. Tanrı bizim hamımıza cansağlığı, xoşbəxtlik və bol sevinc bəxş etsin. Tanrı bizim ölkələrimizə uğurlar və firavanlıq bəxş etsin!"

M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Sadovniçi çıxış edərək dedi ki, bu gün MDU-nun Nəbatat bağında mühüm bir hadisə baş verir, çünki bu hadisə gəncliklə bağlıdır. Rektor Azərbaycan Prezidentinin Bakıda MDU-nun filialının açılmasına göstərdiyi köməyə görə ona təşəkkürünü bildirib. "Filial gözəl ali təhsil müəssisəsidir. O, yeni ərazidə tikilib, onun kampusu unikaldır, filialda oxuyan tələbələr isə Moskva Universitetinin diplomunu alırlar. Əlbəttə, bu, ölkənin elm və təhsil elitasıdır. Mən taleyimdən çox razıyam ki, Heydər Əliyev ilə şəxsən tanış olmaq şərəfinə nail olmuşam. Onunla görüşlərimdən biri barədə danışmışam. Protokol üzrə bu görüş üçün 20 dəqiqə planlaşdırılırdı, amma biz iki saatdan çox söhbət etdik, həyatımızın hələ Sovet İttifaqı dövrünə aid çoxsaylı epizodlarını xatırladıq. Heydər Əliyev mənim nəzərimdə nurlu insandır, Azərbaycan tarixində onun rolunu yaxşı başa düşürəm", - deyən Viktor Sadovniçi daha sonra vurğuladı ki, RAGB öz qarşısına çox nəcib məqsəd və vəzifələr qoyur. Rektor dedi: "İstərdim ki, xeyirxahlıq, gözəllik naminə çalışan, ekologiyanı xilas edən təşkilatlar çox olsun".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək dedi: "Çox vacibdir ki, Rusiyada yaşayan azərbaycanlıların yeni nəsli özlərini bu böyük ölkənin vətəndaşları kimi hiss etsinlər, işləsinlər, inkişaf etsinlər". Səfir daha sonra dedi: "Leyla xanım gənclərin üstünlük verməli olduğu dəyərləri çox düzgün təyin etdi. Bu gün biz bu gözəl bağda buraya gələrkən Leyla xanımla fikir mübadiləsi etdik ki, bu gözəl bağa hökmən Azərbaycandan gətirilmiş ağacları hədiyyə etmək lazımdır, bu ağaclar bitəcək, bizim xalqlarımızın və dövlətlərimizin dostluğunun rəmzinə çevriləcək. Arzum budur ki, RAGB bundan sonra da Leyla Əliyevanın rəhbərliyi ilə fəal işləsin".

BMT-nin Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov Bakıya səfəri barədə söhbət açdı və qeyd etdi ki, həmin səfər müddətində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə ekologiya barədə çox söhbət edib. V.Fetisov dedi: "Leyla Əliyeva uzun illərdir ki, bu məsələ ilə məşğul olur. Mən BMT-nin ətraf mühit üzrə səfiri kimi deyə bilərəm ki, gənclər bizim hamımızı gələcək barədə düşünməyə və ola bilsin, gələcəyə münasibətdə bütün dünya nizamını dəyişməyə məcbur edəcək. Leyla Əliyeva dedi ki, Yer kürəsi bizim ümumi evimizdir. Mən Leylaya təşəkkür edirəm ki, o, həyatın mənasını anlayır. RAGB-nin son on ildə gördüyü işlər hər kəsə nümunədir". V.Fetisov qeyd etdi ki, Bakıya hər dəfə böyük məmnuniyyətlə gedir. Əfsanəvi idmançı dedi: "Bakıya çoxdan vurulmuşam, hər dəfə oraya gələndə başa düşürəm ki, Azərbaycan xalqının qonaqpərvərliyi bu xalqın həyat tərzidir".

Mədəniyyət Günü çərçivəsində RAGB fəallarının mükafatlandırılması mərasimi keçirilib. RAGB-nin sədri Leyla Əliyeva fərqlənənlərə "RAGB-nin ən fəal könüllüsü", "RAGB-nin ən uğurlu idmançısı", "Ən yüksək müvəffəqiyyət dərəcəsi olan tələbə", "Ən fəal regional bölmələr", "Təşkilatın həyatında səmərəli fəaliyyətinə görə" nominasiyalarında xatirə diplomları təqdim edib.

Bayram tədbiri ustad dərslərinin, sərgilərin keçirildiyi, milli atributlar, musiqi alətləri, geyimlər və xalçalarla bəzədilmiş xüsusi fotozonaların təşkil olunduğu bir neçə məkanda davam edib. Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin fəaliyyəti ilə tanış olmaq üçün "AMOR" jurnalının 10 il ərzində çapdan çıxmış nömrələrinin, habelə Azərbaycan klassiklərinin kitablarının təqdim edildiyi oxucu guşəsi yaradılıb.

Tədbir "Qolos" layihəsinin finalçısı Emil Qədirovun, "Qolos deti" şousunun finalçısı Azər Nəsibovun, "Qarabağ" rəqs ansamblının iştirakı ilə açıq səma altında konsertlə başa çatıb.

## Əli Əhmədov: "Aprel döyüşləri ordumuzun statusunu qəti olaraq təsdiq etdi"



Sabah Silahlı Qüvvələr günüdür. Azərbaycanın hər bir vətəndaşı haqlı olaraq fəxr edə bilər ki, qüdrətli, möhtəşəm silahlı qüvvələrimiz var. SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov deyib. Ə.Əhmədov bildirib ki, 2016-cı ilin Aprel döyüşləri ordumuzun statusunu qəti olaraq təsdiq etdi: "Əsgərlərimiz, zabitlərimiz, generallarımız Ali Baş Komandanın əmri ilə istənilən döyüş vəzifəsini, ən başlıcası isə torpaqlarımızın azad olunması vəzifəsini yerinə yetirməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Əminəm ki, Aprel döyüşlərindən sonra düşmənin yuxusu qaçıb, sakitləşib özünə gələ bilmir.

Xüsusi qürur verən cəhət odur ki, Azərbaycanın Silahlı Qüvvələri döyüş qüdrətinə və təchizatına görə dünyanın ən güclü orduları sırasındadır. Əhalisinin sayına görə dünyada 89-cu yerdə olan ölkəmiz ordumuzun qüdrətinə görə 52-ci yerdə durur. Quruculuğu ümummilli lider Heydər Əliyevin müstəqil dövlətçilik strategiyasının reallaşması dövründən başlayan möhtəşəm Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi altında sözün həqiqi mənasında dünyanın qüdrətli silahlı qüvvələri sırasında özünə layiqli yer tutmuşdur".

YAP-ın Sədr müavini Azərbaycan Silahlı Qüvvələrinin 1990-cı illərin əvvəllərindəki vəziyyətindən bəhs edərək qeyd edib ki, ordu günündə keçmişə ekskurs edib 1992-1993-cü illərdə silahlı qüvvələr sahəsindəki anarxiyanı yada salmamaq mümkün deyil: "Ermənistanın silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə başlanan müharibə şəraitində AXC-Müsavat hökumətinin orduya rəhbərliyi hərbdən xəbəri olmayan avantürist birinə həvalə etməsi xəyanət və cinayətdən başqa bir şey deyildir. Bundan heç də geridə qalmayan xəyanət və cinayət o idi ki, cəbhədə torpaqlarımıza təcavüz edən düşmənə çevrilməli olan silahların xeyli hissəsi Bakıda, Gəncədə, digər yerlərdə insanları vahimə altında saxlamaq üçün mülki insanlara paylanmışdı. Daha bir xəyanət və cinayət isə o idi ki, ayrı-ayrı partiyalara və qruplara xidmət göstərən silahlı dəstələr yaradılmasına dövlət səviyyəsində imkan verilmişdi. Nəticədə güclü nizami ordu yaradılması baş tutmamışdı, torpaqlarımızın müdafiəsi lazımınca təşkil olunmamışdı. Mən könüllü batalyonlarda vuruşan, ümumiyyətlə vətənin bütövlüyü yolunda böyük qəhrəmanlıqlar göstərərək canını qurban verən hər kəsin əziz xatirəsi qarşısında baş əyirəm. Onlar həqiqətən qəhrəmanlar idi. O zaman güclü nizami ordumuz yaradılsaydı, şübhə etmirəm ki, əvvəla itkilərimiz qat-qat az olardı, ikincisi isə torpaqlarımız işğal altına düşməzdi. Canını vətən yolunda fəda etməyə hazır olan qəhrəmanlarımız nizami ordu halında birləşərək buna imkan verməzdi".

Ə.Əhmədov daha sonra qeyd edib: "Artıq o illər arxada qalıb. Azərbaycan dəyişib. Güclü iqtisadiyyatı var, sabitlik və əmin-amanlıq möhkəm qərar tutub, insanların rifahı gündən-günə yaxşılaşır, dünyada ölkəmizin nüfuzu yüksəlir. Xalqın iradəsi, Ali Baş Komandanın müdrikliyi və Ordumuzun qüdrəti sayəsində işğal olunmuş torpaqlarımızın geri qaytarılacağına kimsə şübhə etmir. Və o gün uzaqda deyil. Silahlı Qüvvələr Günümüz mübarək!".

## Çinin vitse-prezidenti: Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumu çox əhəmiyyətlidir



Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi və himayəsi ilə yaradılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumu sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikri Çinin vitse-prezidenti Van Çişan Pekində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Çin Xalq Xarici Əlaqələr İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "Çinin inkişafı, dünya üçün imkanlar" mövzusunda 17-ci ali səviyyəli toplantısının iştirakçıları ilə görüşündə deyib. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Çinin inkişafı ilə bağlı məsələlərin müzakirəsinə həsr olunan toplantıların təşkilinə görə təşəkkür edib. Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətindən söz açılıb, qlobal çağırışlara, Çinin beynəlxalq əməkdaşlıqdakı roluna, o cümlədən "Bir kəmər, bir yol" strategiyasının iştirakçısı olan ölkələrin inkişafına təsirlərinə dair söhbət aparılıb.

## "Moskva 24" telekanalı Rusiya Azərbaycanlı Gənclər Birliyinin 10 illiyinə həsr olunmuş tədbirdən reportaj hazırlayıb




"Moskva 24" telekanalı Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) yaranmasının 10 illiyinə həsr olunan Azərbaycan Mədəniyyəti Günündən reportaj hazırlayıb. AZƏRTAC xəbər verir ki, "Moskva 24" telekanalı Rusiya paytaxtındakı M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Aptekarski oqorod" Nəbatat bağında keçirilən tədbirdən reportaj hazırlayıb. Reportajda tamaşaçılara RAGB-nin sədri Leyla Əliyevanın tədbirdə çıxışının bir hissəsi, habelə Nəbatat bağının direktoru Aleksey Reteyumun müsahibəsi təqdim edilib. Bildirilib ki, bayram tədbiri minlərlə insana Azərbaycan mədəniyyəti ilə tanış olmaq imkanı yaradıb. Reportajda on il ərzində RAGB-nin mötəbər gənclər təşkilatına çevrildiyi vurğulanıb, Birliyin həyata keçirdiyi uğurlu layihələrdən bəhs olunub.

## Azərbaycan Hökuməti BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə sıx əlaqələrə malikdir



Azərbaycan Hökuməti BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə sıx əlaqələrə malikdir. Kənd təsərrüfatının inkişafı Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Baş Nazirin müavini Əli Əhmədov iyunun 25-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktorunun müavini Nabil Qanqi ilə görüşdə deyib.

Baş Nazirin müavini qeyd edib ki, Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edə bilib. Bu sahədə heç bir çatışmazlıq yoxdur. Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracı ilə də bağlı işlər görür. Bundan başqa, Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Bu təşkilat əhalinin təhlükəsiz qida ilə təmin olunması ilə yanaşı, məhsulların ixracı istiqamətində də işlər görür. Nabil Qanqi Azərbaycanın qısa müddətdə kənd təsərrüfatı sahəsində xeyli uğurlar əldə etdiyini söyləyib. O vurğulayıb ki, Azərbaycan bu sahə ilə bağlı, eyni zamanda, beynəlxalq gündəlikdə olan məsələlərin həllində də yaxından iştirak edir.

## Mübariz Qurbanlı: "Azərbaycanın dövlət-din modeli dünya ölkələri üçün örnəkdir"



Azərbaycanda dini durum sabitdir. Ekstremist və radikal dairələrin din adı altında ayrı-ayrı ölkələrdə törətdikləri fəsadlar, qarşıdurmalar Azərbaycanda mümkün deyil. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycanda bütün sahələrdə sabitlik yaradılıb, təhlükəsizlik təmin edilib. Digər tərəfdən, Azərbaycan xalqı özünün dünyagörüşünə, mentalitetinə, həmçinin tolerant dəyərlərinə görə fərqlənən xalqlardandır. Ölkəmizdə bu istiqamətdə hökumətin həyata keçirdiyi siyasət, həmçinin yerlərdə din xadimlərinin səmərəli fəaliyyəti Azərbaycanda ekstremist-radikal qrupların din pərdəsi altında heç hansı hərəkətinin baş verməsinə imkan vermir və verməyəcək.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şəkidə keçirilən "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda konfransın yekununda jurnalistlərə müsahibəsində deyib.

Azərbaycanın dövlət-din modelinin bu gün bütün dünya ölkələri üçün örnək olduğunu vurğulayan Dövlət Komitəsinin sədri bildirib ki, hazırda müsəlman ölkələrində bu təcrübə geniş şəkildə öyrənilir.

Son illər Azərbaycanda məscidlərin, ziyarət yerlərinin təmir olunması, yenilərinin tikilməsi istiqamətində çox böyük işlərin görüldüyünü diqqətə çatdıran Mübariz Qurbanlı deyib: "Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu istiqamətdəki fəaliyyətini, gördüyü işləri xüsusilə qeyd etmək lazımdır. Eyni zamanda, Azərbaycanın tolerant dəyərlərinin, multikultural həyat tərzinin dünyada təbliği istiqamətində Fondun gördüyü işlər də beynəlxalq aləmdə böyük əks-səda doğurur".

## Müdafiə naziri xidməti müşavirə keçirib



Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də iştirakı ilə xidməti müşavirə keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən SİA-ya bildiriblər ki, Silahlı Qüvvələr Günü münasibətilə müşavirə iştirakçılarına təbriklərini çatdıran nazir Zakir Həsənov hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin imzaladığı Sərəncamın Ordumuzun bütün şəxsi heyəti tərəfindən dərin minnətdarlıq hissi və böyük ruh yüksəkliyi ilə qarşılandığını vurğulayıb. Nazir dövlətimizin bu sahədə gördüyü işlərin davamlı olacağından əminliyini ifadə edib.

General-polkovnik Zakir Həsənov qoşunların təmas xəttində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılması, şəxsi heyətin sayıqlığının artırılması və təhlükəsizliyinin təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi barədə vəzifəli şəxslər qarşısında tapşırıq qoyub. Nazir, həmçinin hava şəraitini nəzərə alaraq şəxsi heyət arasında istilik və günvurma hallarının qarşısının alınması, onların sağlamlığına diqqətin artırılması və hərbi hissələrdə yanğın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə də göstəriş verib.

# “İstiqlal keşikçiləri” adlı konfrans keçirilib

***26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunan “İstiqlal keşikçiləri” adlı konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, konfransda millət vəkilləri, Milli Qəhrəmanların və şəhidlərin ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***



Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib ki, Azərbaycan Ordusunun yaranmasından 101 il ötür, ancaq əslində ordumuzun tarixi çox qədimdir: “Tarix boyunca əcdadlarımızın ordusu olub, buna görə də ordumuzun tarixi daha qədim zamanlara gedib çıxır. Bir dövlətin qurulması üçün iki vacib amil lazımdır - ağıl və güc. Ölkəmizin bütün sahələrində inkişaf olduğu kimi, ordu quruculuğunda da böyük yol qət etmişik. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra güclü, vahid ordusunun olmaması ölkəmiz üçün böyük təhdid yaratmışdı. Ancaq ulu öndər ordu quruculuğu sahəsində böyük işlər gördü və bu işlər bu gün də davam edir. Müstəqilliyin qorunub saxlanmasında idarəetmə ilə yanaşı güc amili də çox vacibdir. Silahlı Qüvvələr Günü bizim rəşadət, qürur günümüzdür”.

M. İsmayılov bildirib ki, hazırda Milli Qəhrəmanlarımızla bağlı 2 cildlik kitabın nəşri bitmək üzrədir. Fondun icraçı direktoru eyni zamanda qeyd edib ki, gələcəkdə yeni doğulacaq oğlan uşaqlarına Milli Qəhrəmanlarımızın adlarının verilməsi üçün kampaniyaya da başlayacaqlar.

Millət vəkili Kamilə Əliyeva qeyd edib ki, bir dövlətin inkişafı, qüdrətli olması üçün 2 vacib şərt var. Bunlar ölkənin iqtisadiyyatının güclənməsi və hərbi gücüdür: “1990-cı illərin əvvəllərində olan hərbi gücümüzlə bugünkü ordumuzun gücünü müqayisə etdikdə, necə yol qət etdiyimizi görmək olar. Bu gün ölkəmizin yeganə problemi torpaqlarımızın 20 faizinin işğal altında olmasıdır. Biz münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Ancaq hər birimiz bilirik ki, güclü ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir”.

Tədbirdə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev bildirib ki, ordumuz qürur mənbəyimizdir: “Hər bir dövlətin gücü daxili, xarici siyasəti, iqtisadiyyatı ilə yanaşı həm də ordusunun gücündən asılıdır. 1990-cı illərin əvvəllərində güclü, vahid ordumuzun olmaması nəticəsində ard-arda torpaqlarımız işğal olundu. Ancaq bu gün güclü ordumuz var. Ordumuzun daima güclənməsinə ehtiyac var. Dövlət hər zaman ordunun daha da güclənməsi üçün var gücü ilə çalışır”.

“İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə qeyd edib ki, güclü ordu ölkənin əsasını təşkil edir: “Silahlı Qüvvələrin yaradılması Günü hər bir azərbaycanlının bayramıdır. Bu gün Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu, bizi qürurlandırır”.

Tədbirdə eyni zamanda yenilənmiş www.milliqahramanlar.az layihəsinin təqdimatı olub. Layihənin rəhbəri İmadəddin Quliyev bildirib ki, sayt 2015-ci ildə yaradılıb və iki dildə fəaliyyət göstərirdi. Ancaq sayt müasir dövrün tələblərinə cavab vermirdi: “Buna görə yeni, müasir trendlərə uyğun dizayna malik saytımız fəaliyyətə başladı. Müasir standartlara uyğun hazırlanan saytda Azərbaycanın 215 Milli Qəhrəmanı (198-i şəhid, 17-si sağ) ilə bağlı məlumatlar yer alıb”.

Layihə rəhbəri qeyd edib ki, saytın gələcəkdə digər dillərdə fəaliyyət göstərməsi üçün də işlər görülür.

***Ceyhun Rasimoğlu***

## Avropa Şurası kürsüsündən yalan və saxtakarlığın Ermənistanın real sifəti olması bəyan edildi



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasında Daimi Komitə və Büronun hesabat məruzəsi dinlənilib. Məruzələr ətrafında müzakirələrə qoşulan Ermənistan nümayəndə heyətinin üzvləri onlara xas riyakarlıqla Azərbaycan və Türkiyə əleyhinə yalan və iftiralarla dolu çıxışlar ediblər. AZƏRTAC xəbər verir ki, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Rafael Hüseynov bu saxtakarlıqları və böhtanları ifşa edib və belə məzmunlu çıxışların növbəti dəfə işğalçı Ermənistanın və onu təmsil edən deputatların əsl sifətini göstərdiyini, Avropa Şurasının bu cür arzuolunmaz və məyusedici davranışların yeri olmadığını diqqətə çatdırıb.

Deputat qurumun çox məsul və həlledici bir tarixi mərhələni yaşadığını vurğulayaraq bildirib ki, 70 il əvvəl bu təşkilat yarananda Avropa, dünya mühüm bir sərhədin astanasında idi. İkinci Dünya müharibəsindən sonra büsbütün başqa bir Avropa və dünya formalaşmışdı, “soyuq müharibə” epoxası başlanırdı. Avropa Şurasının bioqrafiyası təsdiq edir ki, o, məhz “soyuq müharibə” dövrünün uğurlu təşkilatı olub. Çünki bu qurumun demokratiya, insan hüquqları sahəsində əldə etdiyi başlıca uğurlar elə həmin dövrlərə təsadüf edir. Elə ki, “soyuq müharibə” epoxası bitməyə, artıq real qanlı qarşıdurmalar ortaya çıxmağa başladı, Avropa Şurası daha əvvəlki effektdə fəaliyyət göstərə bilmədi. Hərbi münaqişə və işğalların qarşısını almaqda, milyonlarla qaçqın və köçkünün problemlərini həll etməkdə Avropa Şurası əməli kömək göstərə bilmədi və bacarmadı.

Bütün bunların səbəbinin Avropa Şurasının yanaşmalarında müşahidə olunan qüsurlardan irəli gəldiyini qeyd edən Rafael Hüseynov konkret faktlar üzərində dayanaraq deyib: “İcra olunmayan, kağız üzərində qalan gücsüz qətnamələr, baş alıb gedən ikili standartlar, sözlə əməlin düz gəlməməsi, idarə olunan qruplaşmalar, ayrı-ayrı üzv ölkələrə fərqli münasibətlər, təşkilatın nizamnaməsinin mütəmadi pozulmasına biganə münasibət, islahatların dekorativ səciyyəsi və çoxçox oxşar səbəblər... Avropa Şurasının bu qüsurlardan xilas olması üçün məxsusi bir antivirus proqramına ehtiyacı var. Yoxsa ki, ən ümdə məsələlərin həllində hamımızın ortaq sərvəti olan bu maşın - Avropa Şurası xəta verir, yaddaşı donur, həddən artıq yüklənmiş görünür. Ona görə də mənim fikrimcə Avropa Şurası sərhədin bu tayından o tayına, varlığının 70 yaşdan sonrakı hissəsinə, sadəcə, kosmetik islahatlarla yox, kardinal dəyişikliklərlə getməlidir. Yeni dövr onu göstərir ki, sözün gücü ilə işləmək daha keçmir, əvvəlki effekti vermir. Ona görə də sözün hərəkətə çevrilə, işləyə bilməsindən ötrü onu irəlilədən real güc olmalıdır”.

47 üzv ölkəni əhatə edən Avropa Şurasının qərar və qətnamələrinin icrasına bilavasitə xidmət edə biləcək konkret təsir mexanizmini yaratmalı olduğunu deyən Rafael Hüseynov Avropa Şurası Nazirlər Komitəsinin idarəçilik sistemində də dəyişikliklərin zamanın çağırışı olduğunu bildirib. “Təcrübə aşkar şəkildə nümayiş etdirir ki, qərarların, qətnamələrin icrasına bilavasitə təsir göstərən işlək mexanizm olmadan, Nazirlər Komitəsinin yalnız məşvərət, tövsiyə xarakterli orqan kimi qalmaqla nəyəsə nail olması mümkün deyil. Hər bir üzv ölkə bilməlidir ki, məqamı çatanda təşkilatın yalnız siyasi deyil, çox ciddi iqtisadi və digər sanksiyalarına da məruz qala bilər. Elə bir təsir mexanizmi formalaşdırılmalıdır ki, BMT Təhlükəsizlik Şurasından fərqli olaraq subyektiv mülahizələrə tabe edilməsin, bütün zəruri hallarda dəqiq işləyən mexanizm olsun. BMT Təhlükəsizlik Şurasının lazım bildiyi anda hansısa ölkə ilə bağlı konkret və qəti addımlar atdığını da görmüşük, bir neçə kəskin qətnaməsi olsa da, işğalçı ölkəyə qarşı tam hərəkətsizlik nümayiş etdirməsinə də şahidik”, - deyə R.Hüseynov bildirib.

## Səməd Seyidov: “Etnik təmizləmə aparan, monoetnik ölkə demokratiyadan danışa bilməz”

***Bu gün həqiqətən də dialoqa, qarşılıqlı anlaşmaya ehtiyac var. Başa düşmək lazımdır ki, kommunikasiyasız Avropada, bu təşkilatın nəzdində və dünyada dostluq mühiti yaratmaq mümkün olmayacaq. Nifrətlə, etimad və hörmət olmadan, dəfələrlə bu zalda gördüyümüz bəzi lüzumsuz davranışlarla dostluq mühiti yaratmaq mümkün deyil.***



Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib. Səməd Seyidov qeyd edib ki, Azərbaycan dialoq, qarşılıqlı anlaşma sahəsində çox yaxşı bir nümunə ola bilər. Xalqlar, konfessiyalar arasında dialoqun təşkil olunması sahəsində zəngin təcrübəmiz var. Nümayəndə heyətinin rəhbəri bu yaxınlarda 10 illiyi qeyd edilən “Bakı Prosesi”nin əhəmiyyətini qeyd edib, onun dialoq sahəsində çox yaxşı platforma olduğunu diqqətə çatdırıb.

Səməd Seyidov müxtəlif dinlərin nümayəndələrinin bir araya gəlib bu tədbirdə gələcək münasibətlərini müzakirə etdiklərini vurğulayaraq, Assambleyada da eyni yanaşmanı qəbul etməyin vacibliyinə toxunub: “Təəssüf ki, burada bəzi manevrlərin, çox təhlükəli çıxışların, saxta məlumatların, qeyri-real yanaşmaların şahidi oluruq. Bu təşkilatda belə davranışları dayandırmalıyıq. Bir az əvvəl qonşu ölkənin nümayəndəsi blokadadan, tədrisin əlçatmaz olmasından və digər amillərdən danışdı. Amma heç kim bu problemin yaranması məsələsinə toxunmadı. Bu problem Azərbaycan ərazilərinin işğalı, xalqımıza qarşı aparılan etnik təmizləmə nəticəsində yaranıb. Bu gün işğal altında olan ərazilərdə azərbaycanlılar və digər etnik qrupların nümayəndələri yoxdur. Bununla belə, hələ demokratiya yaratmaq istəyirlər, bu, qətiyyən mümkün deyil. Etnik təmizləmə, həqiqətlərin saxtalaşdırılması ilə deyil, müxtəliflik, dialoq, qarşılıqlı anlaşma sayəsində həqiqətə nail olmaq mümkündür”, - deyə Səməd Seyidov vurğulayıb.

## Pakistan Prezidenti Azərbaycan səfirini qəbul edib

***Pakistan Prezidenti Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadəni qəbul edib. SİA-nın verdiyi məlumata görə, qəbula görə təşəkkür edən səfir Əli Əlizadə, Azərbaycan Respublikası Prezidentinin salamlarını və Azərbaycana dəvətini Prezident Dr. Arif Alviyə çatdırıb.***



Azərbaycan Respublikası Prezidentinin Pakistanla əlaqələrə verdiyi xüsusi önəmi vurğulayan səfir, Azərbaycan-Pakistan münasibətlərinin daim dərinləşməsində və inkişafında hər iki ölkənin rəhbərlərinin və xalqlarının sıx əməkdaşlığının, dostluğunun xüsusi töhvəsinin olduğunu qeyd edib. Siyasi, iqtisadi, ticari, hərbi, hərbi-texniki, müdafiə, mədəni, elmi, turizm, birbaşa hava reyslərinin yaradılması, enerji, humanitar və sosial sahələrdə yeni əməkdaşlıq təklifləri və niyyətləri, həyata keçirilmiş layihələr haqqında Pakistan Prezidentinə məlumat verən səfir Əli Əlizadə, Heydər Əliyev Fondunun Pakistanda xüsusi uşaqlar üçün təşkil etdiyi tədbirə və iftar yeməyinə şəxsən qatıldığına görə Prezident Dr.Arif Alviyə Fondun rəhbərliyinin təşəkkürlərini çatdırıb. Səfir Azərbaycanın Pakistanı qardaş ölkə olaraq hər zaman dəstəklədiyini və Pakistan-Azərbaycan əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini ifadə edərək səmimi görüşə görə təşəkkür edib.

Pakistan Prezidenti Dr. Arif Alvi salamlarının və dəvətə görə minnətdarlığının Azərbaycan Respublikasının Prezidentinə çatdırılmasını xahiş etmiş, beynəlxalq və regional məsələlərdə də hər iki qardaş ölkənin bir-birinin yanında olduğunu və Azərbaycanın dəstəyinin daim məmnunluqla qarşılandığını vurğulayıb. Prezident Arif Alvi Kaşmir və Dağlıq Qarabağ məsələlərinin BMT-nin TŞ-nın qəbul edilmiş qətnamələri əsasında həllinin zəruriliyi bildirmiş və Pakistanın Azərbaycanla strateji tərəfdaşlığının davam edəcəyini qeyd edib. Azərbaycan birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi humanitar və sosial yönümlü layihələrin yüksək qiymətləndirildiyini bildirən Prezident Arif Alvi Ramazan ayında baş tutmuş tədbirin də xüsusi uşaqlara diqqətin cəlb olunmasına, onların qabiliyyətlərinin ictimaiyyətə aşılanmasına xidmət etdiyini və humanist addım olduğunu ifadə edib.

Pakistan Prezidenti Azərbaycan-Pakistan dövlətlərarası əlaqələrinin, həmçinin iki xalq arasında mövcud olan qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək bütün sahələrdə əlaqələrin daha da inkişafının, dərinləşməsinin zəruri olduğunu və buna lazımi dəstəyin mütəmadi veriləcəyini bildirib.

# Milli Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir

## *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Adil Əliyevin yap.org.az-a müsahibəsi*



***- Adil müəllim, məlum olduğu kimi hər il ölkəmizdə 26 iyun tarixi Azərbaycan Silahlı Qüvvələri Günü kimi qeyd edilir. Sizcə, bütövlükdə ordu dövlət və cəmiyyət üçün nə deməkdir?***

- Bəli , Ümummilli Lider Heydər Əliyev 22 may 1998-ci il sərəncamına əsasən əlahiddə Azərbaycan korpusunun yarandığı gün-26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü elan olundu və bu tarix rəsmi dövlət bayramı kimi qeyd olunur. Hər bir dövlət ilk öncə adıyla, bayrağıyla tanınır. Bir dövlətin var olma səbəbi yaşam tarixidir ordu. Bayrağının qürurla yüksəklərdə dalğalanmasının, bir millətin milllət , xalq olaraq mövcudluğu, güvənc yeri, özünün bütün dünyaya isbatıdır ordu... Ordun varsa, Yurdun var! Ordu dövlətin, cəmiyyətin keşikçisidir. Hər bir dövlətin müqəddəratı xalqın taleyi ordusundan asılıdır. Ordu öz dövlətini,xalqını qoruyan bir ana timsalıdır.

***- Nəzərə alsaq ki, torpaqlarımızın böyük bir hissəsi işğal altındadır, onda Silahlı Qüvvələrimizin üzərinə böyük bir məsuliyyət düşür. Necə hesab edirsiniz, ordumuzun döyüş hazırlığı hansı səviyyədədir?***

- Azərbaycan Silahlı Qüvvələri “Dünyanın ən güclü ordusu” reytinqində 58-ci yerdədir. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan ordusu hər bir hava və hava hücumunda müdafiə, hərbi dəniz və quru qoşunlarından ibarətdir. Ordumuz potensial düşmənlə hər zaman mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələr sırasındadır.

***- İşğalçı Ermənistan tərəfindən vaxtaşırı olaraq cəbhə xəttində təxribatlar törədilir. Və işğalçı ordunun rəhbərliyi bəzi iddialarla çıxış edirlər. Sizcə, Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrinin qarşısında duruş gətirə bilərmi?***

- Stokholm beynəlxalq sülh araşdırmaları institutunun hesabatına görə 2012-ci ildə dünyada hərbi büdcəsini ən çox artıran ölkə Azərbaycan olub. 2018-ci ildə dövlət büdcəsində müdafiə xərcləri üçün 2.739 milyard manat ayrılıb. Azərbaycan müdafiə xərcləri Ermənistandan təxminən 4 dəfə artıqdır. Azərbaycan ordusunun sayı 374500 nəfər vətəni uğrunda canından belə keçəcək vətənpərvər əsgərdən ibarətdir. Bu ordunun və malik olduğu texnikanın qarşısında erməni ordusu dura bilərmi?! Və gəlin unutmayaq ki işğalçı bir dövlətin ordusu nə qədər güclü olsa belə məğlubiyyətə duçardır. İşğalçı dövlətin havadarları güclü olsa da ordusu ruhən qorxaq olur.

***- Ordumuzun NATO standartlarına uyğunlaşdırılması məsələsi də daim cəmiyyətin diqqət mərkəzində olub. Bu baxımdan, mövcud vəziyyəti necə dəyərləndirmək olar?***

- Bu gün Azərbaycan Silahlı Qüvvələri NATO standartlarına cavab verən səviyyədə formalaşıb. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək peşəkarlıqla yerinə yetirmək iqtidarna malikdir. Möhtərəm Prezidentimiz, cənab İlham Əliyevin göstərdiyi qayğı nəticəsində vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu gündən günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır.

Azərbaycan beynəlxalq aləmdə NATO standartlarına uyğunlaşmış modern ordusu ilə diqqət çəkir. Azərbaycan hərbçiləri NATO-nun “SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ” proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma kurslarında içtirak edir. Azərbaycanın NATO ilə əlaqələri “Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı” çərçivəsində inkişaf edir. Bu ordu quruculuğumuzda növbəti nailiyyətimiz deməkdir.

***- Adil müəllim, Milli Məclis tərəfindən hərbi qanunvericilik zərurət olduqca təkmilləşdirilir. Bu mənada bu sahədə qanunvericilik bazasını necə qiymətləndirirsiniz?***

- Milli Məclis tərəfindən hərbi qanunvericilyin təkmilləşdirilməsi təqdir olunası haldır. Bildiyimiz kimi hərbi vəzifə və hərbi xidmət haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, digər normativ aktlardan və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Bu gün ordumuzun sıralarında xidmət edən gənclər konstitusiyamızdan irəli gələn tələbləri yetirincə dərk edərək vətənimizə layiqincə xidmət edirlər. Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və onları vicdanla yerinə yetirməlidir. Bütövlükdə, Milli Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir.



# Azərbaycan Ordusu - qürur mənbəyimiz, şərəf tariximiz!

*1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə fərəhləndiyimiz Azərbaycan Silahlı Qüvvələrimizdir!*

***Artıq 21 ildir ki, iyunun 26-sı - Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün ölkəmizdə ümumxalq bayramı kimi qürurla qeyd edilir. Bu günün bayram kimi şanlı tarix səhifəmizə yazılmasının müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Məhz Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Bu baxımdan, qeyd edilməlidir ki, Ümummilli Lider Heydər Əliyevin bu Fərmanı tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm sənəddir. Bu tarixi sənəd Azərbaycanın suverenliyinin, müstəqilliyinin, müdafiəsinin, sabitliyinin qorunub-saxlanılması və inkişaf etdirilməsi üçün öz önəmliyini göstərməkdədir.***

O cümlədən, məlumdur ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olmuşdur. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Biz fəxrlə deyə bilərik ki, Ümummilli Liderimizin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur!

Söz yox ki, biz bu barədə danışarkən, ötən əsrin sonlarında ermənilərin Azərbaycana qarşı qaldırdıqları ərazi iddialarını və müstəqilliyimizin ilk illərində baş verən prosesləri də unutmur və tarixdən dərs alırıq. Ermənilərin işğalçılıq siyasətlərinin ilk vaxtlarından kəndlərimiz qarət olunmağa başlandı. Onlar quldur basqınları törədərək, azərbaycanlıları girov götürür və pul müqabilində buraxırdılar. Bütün bunlara isə, güclü strukturları olan SSRİ-nin rəhbərliyi "növbətçi açıqlamalar" verməklə kifayətlənirdi. Erməni terrorçularına "gözün üstündə qaşın var" deyən yox idi. Azərbaycan əhalisi, haqlı olaraq sual edirdi ki, bir dövlətin tərkibində yaşayırıq, amma bizim əl-qolumuzu bağlayıblar, ermənilər isə istədiklərini edirlər. Əksinə, SSRİ-də ermənipərəst rəhbərlər işğalçılara və separatçılara müxtəlif üsullarla silahlar verir, onları bütün mənalarda təchiz edir, azərbaycanlıların isə haqq-ədalət çağırışlarına bütün dünya göz yumurdu.

Kreml isə, bizi sakitləşdirmək yolunu tutmaqla, Ermənistandakı soydaşlarımızın zorla, fiziki təzyiqlərlə, hətta qəsdlərlə dədə-baba torpaqlarından çıxarılaraq, Azərbaycana qovulmasına şərait yaradırdılar. Qarabağda yaşayan azərbaycanlılar isə, məcbur olurdular ki, özləri öz kəndlərini, ev-eşiklərini, torpaqlarını özləri qorusunlar. Gecə səhərə qədər kəndlərdə tonqal qalayırdılar. Çomaqla, baltayla və dəhrəylə keşik çəkirdilər. Hətta "quş tüfəngi" deyilən köhnə silahlar belə təhvil alınır, təhvil verməyənlər isə cinayət məsuliyyətinə cəlb edilirdilər. Vəziyyət gərgin həddə qədər gəlib-çıxmışdı...

Bunun ardınca, AXC-Müsavat hakimiyyəti dövründə torpaqlarımız ard-arda işğala məruz qalır, erməni vəhşiliyi nəticəsində, insanlarımız öldürülür, soyqırımları törədilir, doğma yurd-yuvalarını tərk edərək, kütləvi şəkildə qaçqın və məcburi köçkünlərə



***Fərrux Haqverdiyev, YAP Xızı rayon təşkilatının sədri***

dönürdülər. Məhz həmin zamanlardan sonra - 1993-cü ilin yayında Ulu Öndərin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı daha böyük fəlakətlərin qarşısını almağa başladı. Çünki Ulu Öndər Heydər Əliyev təcrübəli və səriştəli siyasətçi olmaqla yanaşı, həm də uzun müddət dövlət təhlükəsizliyi orqanlarında işləmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdu. Həm dünyada gedən siyasi proseslərdən, həm də hərbi sahədən kifayət qədər xəbəri vardı. Ulu Öndər hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan vaxtdan ölkəmizdə ordu quruculuğuna başlamışdı. O, yaxşı bilirdi ki, ordu ilk növbədə, milli zabit kadrların olması deməkdir və Ümummilli Lider Heydər Əliyev öz nüfuzu və hörməti ilə mərkəzə müəyyən təsirlər edərək Cəmşid Naxçıvanski adına Hərbi Təmayüllü İnternat Məktəbini yaratmışdı. Bu, o dövr üçün çox mühüm addım idi - hərbi potensiallı kadrlarımız yetişdi və bu reallıq özünü sonrakı illərdə sübuta yetirdi.

Misal üçün, 90-cı illərin əvvəllərində Müdafiə Nazirliyinin tərkibində batalyonlar yaradılsa da, onların hamısı vətənin müdafiəsinə xidmət etmirdi. Bir çoxu müxtəlif siyasi partiyaların maraqlarını güdürdü. Həmin silahlı dəstələr Ulu Öndər tərəfindən ləğv olundu, əvəzində, vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusu yaradıldı. Bu, bütün ictimaiyyətdə böyük ruh yüksəkliyi doğurdu! Tezliklə Horadiz əməliyyatı keçirildi, indiki Çocuq Mərcanlı kəndi də daxil olmaqla, 22 yaşayış məntəqəsi işğaldan azad edildi. Məhz bu əməliyyatlardan sonra ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Çünki gördülər ki, yeni yaradılmış bu ordu ilə Azərbaycan onlara üstün gəlir. Ona görə məcburiyyət qarşısında qalaraq, atəşkəsə də razı oldular. Bundan sonra isə, Ulu Öndər Heydər Əliyev ordu quruculuğu prosesini tam miqyasda həyata keçirməyə başladı. Atəşkəs elan olunandan sonra qeyri-qanuni silahlı dəstələr ləğv edildi, əhalidə olan külli miqdarda silah-sursat toplanıldı. Ölkədə möhkəm və dönməz sabitlik yarandı. Nəhayət, iqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı münasibətlərinə keçid üçün addımlar atıldı, özəlləşdirmə proqramları həyata keçirildi. Ən mühüm tarixi hadisə olan "Əsrin Müqaviləsi" neft kontraktının imzalanması oldu. Bütün bu proseslərlə paralel ordu quruculuğu durmadan davam etdirildi. Hətta yadımıza gəlir ki, o dövrdə əsgərliyə gedənlər bir neçə ay mülki formada xidmət edirdilər. Onları hərbi geyimlə təmin etmək imkanları aşağı idi. Bunlara baxmayaraq, qısa müddətdə Azərbaycan Ordusu lazımi səviyyədə formalaşdırıldı.

Ulu Öndər Heydər Əliyevin ordu ilə bağlı müəyyən etdiyi strategiya bu gün Onun layiqli siyasi davamçısı, siyasi varisi - Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən əzmlə və uğurla həyata keçirilir. Cənab İlham Əliyev bəyan etdiyi kimi, ordunun gücləndirilməsi daim prioritet məsələdir. Məhz Böyük Öndər Heydər Əliyevin miras qoyduğu güclü iqtisadi əsaslardan səmərəli surətdə istifadə edərək, ölkəmizin dinamik və davamlı inkişafına nail olan Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də ordudur. 2007-ci ildən etibarən Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsini ötdü. Ordumuzun arsenalına yeni silahlar daxil edildi. Hərbi hissələr müasir texnologiyaya əsaslanan silahlarla təchiz olunmağa başladı.

Ümumiyyətlə, son 16 il, bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da möhtəşəm uğurlarla əlamətdardır. Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində, bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və modern ordusuna malikdir. Hazırda dünya hərb sənayesinin ən son yenilikləri olan silah-sursat Azərbaycan Ordusunun arsenalında yer alır. İki həftə əvvəl dövlət başçısının baxış keçirdiyi "Polonez" və "Lora" əməliyyat-taktiki raket kompleksləri dünyada cəmi bir neçə orduda var. Son vaxtlara qədər "İsgəndər"lə öyünən ermənilər indi dərin təlaş keçirirlər. Ali Baş Komandan, Prezident İlham Əliyev Silahlı Qüvvələrdə irimiqyaslı köklü islahatların keçirilməsi, ordunun ən müasir, yüksək dəqiqlikli və böyük dağıdıcı gücə malik olan silah və hərbi texnika ilə təchizatı vəzifəsini qarşıya qoyub. Bu vəzifənin icra edilməsi çərçivəsində cəmi, 3-4 il ərzində, ordunun zirehli döyüş texnikası parkı böyük ölçüdə yenilənib. Azərbaycan Ordusunun raket-artilleriya qoşunlarının silahlanmasında yer alan artilleriya qurğuları, reaktiv artilleriya sistemləri o qədər çoxsaylıdır ki, onlardan eyni vaxtda bir yaylım atəşi açılsa, düşmənin bütün mövqeləri darmadağın olardı.

Qeyd etmək olar ki, ordunun mühüm şərtlərindən biri Ali Baş Komandanın özünün Silahlı Qüvvələrə bağlı olması, hərbi işi dərindən bilməyi və daim ordunun problemləri ilə yaşayıb, onları uğurla həll etməyi bacarmasıdır. Bu sahədə də Azərbaycan Ordusunun bəxti gətirib. Cənab İlham Əliyev sistemli şəkildə təmas xəttində, səngərlərdə olur, əsgərlərlə görüşür, onları təltif edir, durumları ilə maraqlanır və onlarla birgə əsgər yeməyi yeyir. Bunlar həm orduda böyük ruh yüksəkliyi doğurur, həm də onun daxilində olan məsələləri öyrənib problemlərin dərhal həll olunmasına şərait yaradır. Bütövlükdə, ordu-rəhbər birliyi, ordu-xalq vəhdəti özünün yüksək səviyyədə həllini tapmışdır!

Bu vəhdətin təsdiqini biz 3 il əvvəl aprel döyüşlərində gördük. Həmin vaxt həyata keçirilən hərbi əməliyyatlar Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Gördük ki, bu ordu çox qısa müddətdə, qarşısına qoyulan vəzifələri yüksək səviyyədə həyata keçirmək iqtidarındadır. Ermənilər uzun müddət kimlərinsə sayəsində "keçilməz sədd", "aşılmaz manelər", "dəfedilməz səngərlər" yaratmışdı. Amma Lələtəpə və Talış əməliyyatları göstərdi ki, bütün bunlar mifdir, Azərbaycan əsgəri üçün asan hədəfdir. Həm də o əməliyyatlarda bizim malik olduğumuz silah-sursatın cüzi qismi işlədildi. Uğurlu əməliyyat nəticəsində, Azərbaycan xalqının orduya olan məhəbbəti, inamı qat-qat artdı! Həmçinin, aprel döyüşləri başlayanda, yüzlərlə Azərbaycan gənci hərbi xidmətə çağırış vərəqəsini gözləmədən döyüşmək istəyi ilə səfərbərlik orqanlarına müraciət etdilər. Əməliyyat gedən əraziyə bu gəncləri buraxmamaq üçün bir sədd yaratmışdılar. Ermənistan tərəfdə isə, Azərbaycan əsgərindən, Azərbaycan silahından qorxub qaçan erməni əsgərlərini saxlamaq üçün sədd çəkmişdilər, hətta onları geriyə qaytarmaq üçün güllə ilə vururdular da... Bərkə düşən kimi, erməni hərbçiləri qaçmağa başlayırlar. Çünki bilirlər ki, Qarabağ onların deyil və bu ərazidə müvəqqətidirlər!

Azərbaycanın Ermənistana tərs şapalağı olan aprel müharibəsi həm Dağlıq Qarabağ münaqişəsində indiyədək yaranmış vəziyyəti, ərazi baxımından qismən dəyişdi, həm qüvvələr nisbətində baş vermiş ciddi dəyişiklikləri nümayiş etdirdi və həm də çox ciddi psixoloji dönüşə səbəb oldu. Cəmi dörd gün çəkən aprel müharibəsi göstərdi ki, Azərbaycan iqtisadi, siyasi, mənəvi-psixoloji və hərbi cəhətdən düşməndən qat-qat güclü və üstün mövqedədir!

Prezident İlham Əliyevin hər bir addımı atmazdan öncə, onun nəticələrini və həmin nəticələrdən yaranacaq istənilən situasiyanı aradan qaldırmağın üsul və vasitələrini irəlicədən hesablaması hamıya bəllidir. Budur, Ali Baş Komandanımız əlverişli məqam taparaq, bu dəfə Ermənistanın yeni rəhbərliyinin hoqqalarına və oyunbazlığına cavab kimi düşmənə ikinci zərbəsini vurdu. Özü də bu zərbənin səsi Qarabağdan yox, Naxçıvandan gəldi! Bu dəfə azad olunan vətən torpağının adı isə, Günnüt kəndidir. Nə az, nə çox - 11 min hektar torpaq sahəsi yenidən qəhrəman Azərbaycan Ordusunun nəzarətinə keçdi. 26 ildən sonra çox mühüm strateji nöqtələr - Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya və Mehridağ geri qaytarıldı. Üstəlik, Ermənistandan Dağlıq Qarabağa aparan Gorus-Laçın-Xankəndi yolu da hərbçilərimiz tərəfindən nəzarətə götürüldü. Bu isə, o deməkdir ki, əgər Ermənistan Azərbaycanda hərbi əməliyyatlara yenidən başlasa, düşmən ordusu mühasirə vəziyyətinə düşəcək. Amma hələ bu da son deyil. Azərbaycan üçün başlanan Böyük Qayıdışın davamıdır. Başlanğıcını Cocuq Mərcanlıdan götürən qayıdışın...

# Təhsil sahəsində inqilabi dəyişikliklərə nail olunub

*Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir*

***Müasir dövrdə hər bir ölkənin dinamik inkişafı, onun uğurlu gələcəyi, dünya dövlətləri sırasına daxil olması, ilk növbədə, elm və təhsilin səviyyəsi ilə müəyyən olunur. Bu baxımdan, yeni təfəkkürlü intellektual elitanın, güclü insan kapitalının formalaşdırılması Azərbaycanda da strateji əhəmiyyətli vəzifələrdəndir. Söz yox ki, bu gün bütün sahələrdə təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühümuğu kimi, elm və təhsil sahəsində də böyük uğuelar, nailiyyətlər əldə olunub. Buna görə, məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə minnətdarıq. Məhz Onun müdrik qərarları, mütərəqi addımlar sayəsində, elm və təhsildə yığılıb qalmış problemlər tədricən həll olundu, geniş və qürurverici nailiyyətlərə nail olundu. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövrü olan 1993-2003-cü illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Yüzlərlə məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb və şagirdlərə pulsuz verilib.***



Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilib. 1998-ci ildə Azərbaycan müəllimlərinin qurultayında Ümummilli Lider Heydər Əliyev çıxışın da təhsilimizin inkişafı ilə bağlı fikirlərini bildirib, tövsiyələrini verib. Müəllimlik peşəsini, müəllim əməyini həmişə yüksək qiymətləndirən Dahi Öndər Heydər Əliyev deyirdi: "Bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir". Ümummilli Lider Heydər Əliyev bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Dahi Öndər öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır". Ulu Öndər Heydər Əliyev bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də Dahi Öndərimizin zaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu Sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. Ulu Öndərimiz Heydər Əliyevin 17 fevral 2003-cü il il də imzaladığı "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

## Elm və təhsilin yeni inkişaf dövrü

Dahi Öndər Heydər Əliyevin uzaqgörən siyasi kursunun ən layiqli varisi olan ölkə Prezidenti İlham Əliyevin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" konsepsiyası isə cəmiyyətin inkişafında yeni zəmin yaratmaqla yanaşı, dövlət başçısının bu uzaqgörən fikirlərini bir daha təsdiqləyir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir". Təhsil sisteminin qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən Prezident İlham Əliyev belə bir vacib məqamı xüsusi vurğulamışdır: "Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır". Son 16 ildə respublika ərazisində heç bir dövrdə müşahidə olunmadığı qədər məktəb binası tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub, köhnə təhsil müəssisələri bərpa və əsaslı təmir olunub. Ümumilikdə, bu illər ərzində, 3 mindən artıq məktəb tikilərək istifadəyə verilib və ya əsaslı şəkildə təmir olunub. Bu prosesdə Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan təhsilinin inkişafına mühüm töhfələr verir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, məktəbəqədər müəssisələrin və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsil müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi istiqamətlərində Heydər Əliyev Fondunun göstərdiyi müstəsna xidmətlər misilsizdir. Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırılmış "Yeni Azərbaycana - yeni məktəblər" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən üç mindən çox məktəb binası tikilib istifadəyə verilib. Məktəblər yeni avadanlıqla təchiz edilib. Təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb.

## Elm və təhsilə böyük diqqət yetirilir

Uğurla reallaşdırılan islahatlar, Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələrin həcminin artırılması elm və təhsilin, sosial sahə və institutların inkişafına səbəb olmaqla yanaşı, müxtəlif sahələr üçün yararlı, yüksək səviyyəli kadr potensialının formalaşdırılması işinə də geniş imkanlar yaradır. 2018-ci ildə də məktəb infrastrukturunun müasirləşdirilməsi tədbirləri davam etdirilmişdir. Məhz dövlət başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, 2018-ci ildə də 110 məktəb tikilib, 500-ə yaxın təhsil ocağı təmir olunub. Hazırda respublikada təhsil sahəsində də dəyişikliklər baş verir. Azərbaycanın vahid Avropa təhsil məkanına daxil olması, bir tərəfdən tədris-təhsil modellərinin müasir tələblərə uyğunlaşdırılmasını, digər tərəfdən isə, formalaşmış təhsil sisteminin etik-mədəni, milli-mənəvi özünəməxsusluğun qorunmasını zərurətə çevirir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc Türkiyə, Almaniya, Fransa, Kanada, Rusiya, Sinqapur, ABŞ, Litva, Böyük Britaniya, İtaliya və digər ölkələrin ən nüfuzlu universitetlərində təhsilin müxtəlif pillələrində oxumağa göndərilib. Onlar respublikamız üçün zəruri olan ixtisaslar üzrə təhsil alırlar. Xaricdə oxumağa göndərilmiş gənclərin müəyyən hissəsi artıq təhsilini uğurla başa vuraraq, ölkəmizə qayıdıb və müxtəlif qurumlarda çalışır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsilin idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir. Azərbaycan Prezidenti İlham Əliyev vurğulamışdır: "Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir". Uzun illərdir təhsil sahəsində aparılan islahatlar bəhrəsini verir, təhsilin keyfiyyəti gündən-günə artır. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu bu istiqamətdə uğurlu proseslərin daha dinamik şəkildə davam etdirilməsinə təkan olub. Qanunun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. Təhsil sahəsində aparılan islahatların müsbət nəticələri ilə bağlı mətbuata açıqlama verən Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Pərvin Kərimzadə bildirib ki, hər bir xalqın və ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür: "Ölkəmizdə təhsilin müasir dünya standartları səviyyəsinə qaldırılması məqsədi ilə aparılan islahatlar uğurla davam etdirilir, təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilib. Bu, ilk növbədə, dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq, hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının yeganə yolu, məhz təhsilin inkişafından keçir. Sevindirici haldır ki, Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində, xüsusilə də, Azərbaycanın parlaq gələcəyinə hesablanan elm və təhsil sahəsində mütərəqqi islahatların aparılmasına böyük önəm verilir. Dahi rəhbər Heydər Əliyevin vurğuladığı kimi, təhsil hər bir xalqın gələcəyidir. İnkişaf etmiş dövlətin qurulması üçün birinci amilin yüksək təhsil səviyyəsi olmasını hesab edən Prezident İlham Əliyev tərəfindən də Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq Ulu Öndərin təhsil siyasəti hazırda uğurla davam etdirilir. Təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi ölkədə təhsillə bağlı nəticələrə də müsbət təsir göstərib. Təhsil sistemində aparılan islahatlar, artıq öz nəticələrini verməkdədir. Azərbaycan təhsili güclü maddi-texniki bazaya və kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir". Bir sözlə, Azərbaycan təhsili aparılan düzgün siyasət nəticəsində özünün inkişaf dövrünü yaşayır. Bu isə, "Təhsil millətin gələcəyidir" deyən Dahi Öndərimiz Heydər Əliyevin ideyalarının və əsasını qoyduğu siyasətin dönməzliyi və davamlığı təmin olunduğunu göstərir.

***Zakir Rəhimli***
***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə***

# Erməni analitikləri həyəcan təbili çalırlar

## Rozi Mikaelyan: "İran-ABŞ və Rusiya-Gürcüstan münasibətlərinin gərginləşməsi halında biz dörd tərəfdən blokadaya düşə bilərik"

***ABŞ-İran və Gürcüstan-Rusiya münasibətlərində gərginlik həddinin bütün şkalaları anidən aşması və belə bir vəziyyətin regiona hansı təsirlər göstərə biləcəyi ətrafında daha çox təlaş keçirən tərəf Ermənistandır. Belə ki, sözügedən situasiya bu ölkənin onsuz da ağır və böhranlı vəziyyətini daha da dərinləşdirir, xüsusilə, iqtisadi və s. cəhətdən məhvolma tendensiyasını qabardır. Əbəs deyil ki, sözügedən məsələlər kontekstində Ermənistanın siyasi ictimaiyyətində, o cümlədən, KİV çevrələrində son günlər ən çox müzakirə mövzusu da, məhz budur.***



Belə ki, iyunun 24-də Nikol Paşinyanın rəhbərliyi ilə təhlükəsizlik şurasının növbəti iclası keçirilib və erməni baş nazir bu ifadələri səsləndirib. SİTAT: "Ermənistanın təhlükəsizliyi sferası ətrafındakı vəziyyət, nəinki inkişaf etməyə başlayıb, əksinə, bizim regionda müəyyən proseslər gedir ki, onlar bizi təhlükəsizlik məsələlərində daha diqqətli olmağa vadar edir".

### "Protokol bəyanatı xətrinə diqqətli olmaq çağırışından əlavə, konkret addımlar atmaq lazımdır"

Bu arada, Ermənistanın analitikləri, politoloqları, o cümlədən, siyasi texnoloqları da müəyyən fikir və proqnozların irəli sürməklə, son vəziyyətin, həqiqətən də, ermənilər üçün ürəkaçan olmadığını etiraf edirlər. Misal üçün, analitik Rozi Mikaelyan qeyd edib ki, bəli, diqqətli olmaq lazımdır. O, sözügedən fikirlərini "aysor.am" saytının jurnalisti ilə söhbətində deyib. SİTAT: "Heç kimə sirr deyil ki, Ermənistanın iki sərhədi bağlıdır və təsəvvürə gətirmək də çətin deyil ki, İran-ABŞ və Rusiya-Gürcüstan münasibətlərinin gərginləşməsində biz dörd tərəfdən blokadaya düşə bilərik. Lakin protokol bəyanatı xətrinə diqqətli olmaq çağırışından əlavə, konkret addımlar atmaq lazımdır. Ancaq son zamanlar baş nazirin bəyanatlarından da, gördüyümüz kimi, həmin bəyanatlar suallara cavab vermir, əksinə, yeni sualların yaranmasına şərait yaradır. Ardıcıllıqla belə bir sual yaranır: bəs hazırkı istiqamətdə hansı addımlar atılır?"

Erməni analitiki Paşinyana təklif də ünvanlayıb. Belə ki, o, müxtəlif kanallarla münaqişə tərəfləri ilə konsultasiyalar aparmaq fikrini irəli sürüb. Onun sözlərinə görə, ilk növbədə, müttəfiq ölkəylə - Rusiya ilə başlamaq olar. Çünki təhlükə baş verərkən, məhz müttəfiqin dəstəyinə ümid etmək lazımdır.

### Rozi Mikaelyan, təkliflər irəli sürsə də, özü-özünü aldatdığını yaxşı bilir

Lakin siyasi analitk Rozi Mikaelyan bəlkə də, bu məsələdəki fikrini və təklifini irəli sürdüyü zaman özü də öz sözlərinə inanmayıb. Daha dəqiq desək, Nikol Paşinyanın Rusiyanın dövlət rəhbərlikləri qarşısındakı nüfuzunun, demək olar ki, olmaması, Ermənistanda anti-Rusiya meyillərinin saxlanılması, Rusiya hərbi bazalarının Ermənistandan çıxarılması tələblərinin, vaxtaşırı olaraq, səsləndirilməsi və s. kimi faktlar, əslində, adıçəkilən analitikin gerçəklik tərəfdən çıxış etməsi məsələsində də suallar doğurmaqdadır. Bu baxımdan, hətta onun təklifi nəzərə alınarsa belə, Rusiya heç vaxt müttəfiq adı altındakı vassalı Ermənistanın milli təhlükəsizliyini öz siyasi reputasiyasından üstün tutmaz və tutmur da. Ona görə də, Rozi Mikaelyanın proqnozları, sadəcə, utopiya xarakteri kimi qiymətləndirilə bilər.

### Türkiyə və Azərbaycan faktoru da erməniləri qorxudur

Yaxud o, sadəcə, özü-özünü aldatmaqla, yaxud təskinlik verməklə məşğuldur.

Problem isə, necə deyərlər, qalmaqda, hətta inkişaf etməkdə davam edir.

Ancaq Gürcüstan tərəfi ilə də Ermənistanın vəziyyəti ürəkaçan deyil. Erməni analitiki deyir ki, bu məsələdə də işləmək lazımdır. "Yerindəcə anlamaq lazımdır, bu məsələdən Türkiyə və Azərbaycan hansı səmərələri götürə bilərlər" deyə o, narahatlığını gizlətməyib. Çünki Gürcüstanın istər iqtisadi, istərsə də digər məsələlərdə ən yaxın strateji tərəfdaşları, məhz Türkiyə və Azərbaycandır və bu ölkələrin hesabına, gürcülər ayaqda qalmağı, hətta inkişaf etməyi bacarıblar.

Mikaelyan, həmçinin, ABŞ və İranla da konsultasiyaların aparılmasının vacibliyini deyib və Ermənistan üçün təhlükənin hazırda da qaldığını bildirib. Lakin bu ölkələrin də cılız, iqtisadiyyatı və digər sferaları olmayan Ermənistanın xeyrinə öz maraqlarını dəyişəcəklərini düşünmək sadəlövhlük olardı. Düzdür, bu gün İran Ermənistana nəfəs borusu rolunu oynayır, amma bu borunun uzunmüddətli olacağını kimsə sığortalamayıb. Yəni ABŞ İrana qarşı münasibətini müharibə vəziyyətinə qədər inkişaf etdirərsə, bu məsələdə Ermənistan, sadəcə, blokadaya düşəcək və bağlanmış sərhədlər ortasında can verməli olacaq.

**Rövşən RƏSULOV**





# Daşkəsəndə 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü qeyd olunub

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin inzibati binasında 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü qeyd olunub. İlk öncə, tədbir iştirakçıları rayonun mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.***

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının əziz xatirəsinin yad edilməsi ilə başlanan tədbiri Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq, Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından və inkişafından söz açıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə, ordu quruculuğunu, Silahlı Qüvvələrin təkmilləşdirilməsini və maddi-texniki bazasının gücləndirilməsini, milli hərbi kadrların hazırlanmasını daim diqqətdə saxlayıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində, Silahlı Qüvvələr modernləşdirilib və bölgənin ən güclü ordusuna çevrilib. Bu gün Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə ölkəmizin ərazi bütövlüyünü bərpa etmək qüdrətinə malikdir.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədr müavini Elmar Məmmədov çıxış edərək, vurğulayıb ki, bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səyləri nəticəsində, Azərbaycan Ordusu regionun ən qüdrətli silahlı qüvvəsinə çevrilib və hər an düşmənə layiqli cavab verməyə əzmindədir: "Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində, milli ordu quruculuğu yeni mərhələyə qədəm qoyub və qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırılıb. Ulu Öndərin bu siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin səyləri nəticəsində, Azərbaycan Ordusu, qısa bir zamanda, regionun ən qüdrətli ordusuna çevrilib".

Görüşdə Qarabağ müharibəsi veteranı kimi Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev və rayondan olan Qarabağ müharibəsi veteranları və əlillərinin bir qismi Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən təsis edilmiş "Milli Ordu-100" və "Müharibə Veteranı 1994" medalları ilə təltif olunublar.

Eyni zamanda da, rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev bir qrup Qarabağ müharibəsi döyüşçüsünə və əlilinə qiymətli hədiyyələr təqdim edib.

**Rəfiqə KAMALQIZI**



# Azərbaycanda bu günədək 628,6 min hektar sahədə taxıl biçini aparılıb

Respublika ərazisində taxıl biçini davam edir. Bu il Azərbaycan ərazisində 1 milyon 9 min 139,8 hektar sahədə taxıl əkini aparılıb. Bunun 677 min 793 hektarı buğda, 331 min 346,8 hektarı isə arpa sahəsidir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, iyunun 25-nə olan operativ məlumata görə, ölkə ərazisində 628 min 656,95 hektar ərazidə taxıl biçini aparılıb, 303 min 286,6 hektar ərazidə arpa, 325 min 370,35 hektar ərazidə buğda biçini başa çatıb. Ümumilikdə bu günədək ölkə üzrə 2 milyon 3 min 496,7 ton taxıl yığılıb, orta məhsuldarlıq hər hektara 31,8 sentner təşkil edir. Bərdə, Zərdab, Ucar, Yevlax, Sabirabad, Saatlı, Salyan, Biləsuvar, Kürdəmir, Ağdam, Tərtər, Balakən, Neftçala, İmişli və Masallı rayonlarında arpa biçini başa çatıb.

Beyləqan, Füzuli, Cəlilabad, Qax, Biləsuvar və Göyçay rayonlarında isə arpa biçini başa çatmaq üzrədir. Goranboy ərazisində arpa əkilmiş 13 min 449 hektar sahənin 13 min 339 hektarı artıq biçilib. Rayonda arpa üzrə məhsuldarlıq 29 s/ha təşkil edir. Göyçay ərazisində arpa əkilmiş 6 min 851 hektar sahənin 6 min 797 hektarı artıq biçilib. Rayonda arpa üzrə məhsuldarlıq 30,5 s/ha təşkil edir. Şəki, Hacıqabul, Ağsu, Ağdaş və Ağcabədi rayonlarında da arpa biçinində yüksək nəticələr əldə olunub.

# Mayda istehlak məhsullarının və xidmətlərin qiymətləri aprelə nisbətən 0,4 faiz ucuzlaşıb



Mayda istehlak məhsullarının və xidmətlərin qiymətləri aprelə görə 0,4 faiz ucuzlaşıb, yanvar-may aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən isə 2,4 faiz bahalaşıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 5 ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə 102,7 faiz təşkil edib.

# İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi



***Son illər ərzində Azərbaycanda telekommunikasiya sektorunun inkişafı istiqamətində bir çox müsbət nəticələr əldə edilmişdir. Bu inkişafın davamlılığının təmin edilməsi üçün həmin sektorun qlobal iqtisadiyyatda meydana gələn yeniliklər və müasir texnologiyalar həyatımızın bütün sahələrinə sürətlə daxil olmaqdadır. Dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə, cəmiyyəti əhatə edib. İnformasiya texnologiyalarının daha geniş yayıldığı ölkələr dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır. İndi cəmiyyətimizi informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm yenilik olan internetsiz təsəvvür etmək qeyri-mümkündür.***

Azərbaycan dövləti internetin cəmiyyətin və insanların həyatının ayrılmaz hissəsi olduğunu nəzərə alaraq, indiyə qədər bu istiqamətdə bir sıra addımlar atıb. 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin təsdiq etdiyi İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya, Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə təsdiq etdiyi "2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Dövlət Proqramı", həmçinin 22 oktyabr 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın da əsas hədəflərindən biri, məhz ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır və Azərbaycan dövlətinin bu məsələyə ciddi diqqət göstərməsindən xəbər verir. Qəbul edilən bu sənədlər Azərbaycan dövlətinin İKT-nin inkişafına diqqətlə yanaşdığını göstərir. Dünya təcrübəsi də təsdiqləyir ki, internetdən geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar bəzi problemlərin həlli üçün tutarlı vasitələrdən biri hesab olunur.

## Elektron dövlət yaradılması

Bu gün Azərbaycan dövləti informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanır. Hazırda informasiya cəmiyyətin bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur. Müasir tələblər baxımından, ölkədə informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsi, bütövlükdə dövlətin hərbi-siyasi və sosial-iqtisadi potensialının göstəricilərindəndir. Azərbaycan, bu mənada, istisna hal təşkil etmir və informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin siyasi məqsədlərindən biridir. Ölkənin şəbəkələşməsi, vətəndaşların və təşkilatların birbiri ilə onlayn əlaqələr yaratması, elektron imza texnologiyasının tətbiq olunması elektron dövlətin əlamətləridir. Elektron dövlət yaradılması, təbiidir ki, qısa müddətin işi deyil. Bu, informasiya cəmiyyətinin formalaşması prosesinin bir təzahürü olaraq getgedə dərinləşir, yeni texnologiyalar meydana çıxır, informasiya resurslarının sayı da, həcmi də artmaqda davam edir. İnsanlar informasiya texnologiyalarına yaxından bələd olur, onun imkanlarından yararlanırlar. Azərbaycanda bu iş tam qənaətbəxşdir. Elektron dövlət quruculuğu müvafiq proqrama uyğun olaraq, çox uğurla həyata keçirilir və yüksək templə davam etdirilir.

## "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi

Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə önəmli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək, "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, nəzarət və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. "ASAN xidmət"in daha bir uğuru da robot Sofiyanın mərkəzində könüllü kimi fəaliyyət göstərməsi və İmişli rayonunda "ASAN Həyat" Kompleksinin açılışı zamanı Prezident İlham Əliyevə təqdim olunmasıdır.

## Kosmik sənaye infrastrukturunun yaradılması

İnformasiya-kommunikasyia texnologiyalarının əsas özəyi olan kosmik sənaye infrastrukturunun yaradılması da dövlətimizin əsas hədəflərindən sayıla bilər. Kosmik sənaye çoxşaxəli olub, kosmik maşınqayırmanın inkişafı, kosmik komplekslərin layihə simasının təkmilləşdirilməsi, kosmik tədqiqatların nəticələrinin analizi, təsərrüfat əhəmiyyətli məsələlərin həlli, informasiyanın toplanılması və emalının müasir texnologiyalarının yaradılması, həmçinin, yeni növ materialların hazırlanması kimi geniş bölmələri əhatə edir. Bu nəhəng infrastrukturların yaradılması güclü iqtisadi inkişaf və milli-elmi kadr institutlarının olmasını vacib edir.

Azərbaycan tarixinin önəmli layihələrindən biri olan "Azerspace-1" peykinin 2013-cü ildə orbitə çıxarılması ilə ölkəmiz azsaylı dövlətlərin təmsil olunduğu "Kosmik klub"a üzv olub. Uzaq olmayan keçmişə nəzər salsaq, görərik ki, Azərbaycanda bir çox digər sahələrdə olduğu kimi, kosmik sənayenin əsasları da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının nəzdində "Kosmik cihazqayırma konstruktor bürosu" yaradılıb və kosmik tədqiqatların aparılmasına başlanılıb. Əfsuslar olsun ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycanda cərəyan edən siyasi proseslərin destruktiv təsirləri kosmik sənayedən də yan keçməyib, bu sahədə ixtisaslaşmış kadrların ölkədən axınına, əldə olunmuş bilik və təcrübənin itirilməsinə səbəb olub. Prezident İlham Əliyevin 2009-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" ilə Azərbaycanda müasir kosmik layihələrin həyata keçirilməsinə start verilib. Bu da, öz növbəsində, xarici dövlətlərin peyklərindən asılılığı aradan qaldırıb və "Azerspace-1" ölkəmizin informasiya təhlükəsizliyinin vacib komponentinə çevrilib.

"Azerspace-1" peyki ilə yanaşı, "Azersku"da suverenliyimizin qorunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlara malikdir. 2015-ci ildən etibarən "Azersky" peyki ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilir, həmçinin işğal olunmuş ərazilərimizdə törədilmiş yanğınların, mütəmadi olaraq, monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılır. "Azerspace-1"in ardınca ölkəmizin 3-cü peyki orbitə çıxarılıb. "Azerspace-2" adı verilən peykin Fransa Qvianasında yerləşən Kuru Kosmodromundan orbitə buraxılması ilə əlaqədar Prezident İlham Əliyev Azərbaycan xalqına təbrik mesajı ünvanlayıb. Dövlət başçısı bildirib ki, son 5 ildə Azərbaycan orbitə 3 peyk çıxarıb: "Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü və bizim siyasətimizi göstərir".

## Azərbaycanda informasiya cəmiyyətinin formalaşması

Bir zamanlar silah gücünə həll edilən bəzi məsələlər bu gün informasiyanın köməyi ilə yoluna qoyulur. İnternet həm də getdikcə savaş meydanına çevrilir. İndi hər cür informasiyanı əldə etmək və yaymaq üçün texnologiyanın son uğurlarından istifadə edirik. Kompüter və internet isə sürətlə həyatımıza az qala hava - su kimi daxil olmaqdadır. Azərbaycanın informasiya təhlükəsizliyini təmin edən əsas amillərdən biri, Azərbaycan, onun tarixi, mədəniyyəti, siyasi sistemi haqqında informasiyaları, eləcə də, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıracaq çoxlu sayda yaradılmış veb-saytların və səhifələrin olmasıdır. Azərbaycanda informasiya cəmiyyətinin formalaşması prosesində ölkənin milli informasiya təhlükəsizliyi sisteminin yaradılması, informasiya fəzasının təhlükəsizliyinin və vətəndaşların informasiya hüquqlarının müdafiəsinin təmin edilməsi İKT sahəsində fəaliyyət göstərən mütəxəssislər qarşısında duran əsas vəzifələrdən biridir.

Son vaxtlar xaricdə ermənilərin nəzarəti altında olan media orqanlarının Azərbaycanla bağlı yaydığı dezinformasiyaların sayı kəskin şəkildə artıb.

Yalan informasiyalar, əsasən, Ermənistan dövləti, erməni diasporu və lobbisinin birbaşa tapşırığı və nəzarəti altında tirajlanır. Ermənistanda və xaricdə yaşayan ermənilər Azərbaycan barədə yalan informasiyaları "aprel müharibəsi"ndə məğlub olduqdan sonra daha da artırıb. Demək olar ki, hər gün xarici mətbuatda erməni lobbisinin tapşırığı ilə ölkəmizlə bağlı yalan məlumatlar yayılır. Belə məlumatların hər gün daha da artması bəzi suallar ortaya çıxarır. Xaricdə erməni lobbisi və diasporu ilə informasiya müharibəsi aparmaq üçün birbaşa məsul olan qurumlar var və bu qurumların xaricdə fəaliyyət göstərən Azərbaycan təşkilatlarına dəstək verməsi məqsədəuyğun olardı. Erməni lobbisinin Azərbaycanla bağlı hər gün artan yalan məlumatları ilə müqayisədə bunu heç də müsbət qiymətləndirmək olmaz. Hər kəsə məlumdur ki, ermənilər döyüş meydanında Azərbaycana qalib gələ bilmir. Ermənilər həmişə Azərbaycana qarşı qərəzli müharibə aparıblar. Onlar bizdən aprel məğlubiyyətinin əvəzini, hər nə yolla olur-olsun, çıxmağa çalışırlar.

Uğurlu fəaliyyət modeli bütün dünya tərəfindən qəbul olunan görkəmli dövlət xadimi kimi beynəlxalq miqyasda böyük nüfuz qazanan Prezident İlham Əliyev Azərbaycana siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli-siyasi etika nümunəsi gətirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bütün bunlar ölkəmizin gələcək inkişafının qarantı sayıla bilər. Bu günümüzün daha bir reallığı isə, ondan ibarətdir ki, Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir, onu qarşıda daha möhtəşəm uğurlar gözləyir.

***Fətulla Həsənov***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün***

# Xəyanət düyünləri haçalandıqca...

*Sonsuzluğa gedən Əli Kərimlinin xəyanətləri...*



***Xəyanəti gizlətmək olmaz. Necə deyərlər, “haqq nazilər, amma üzülməz”. Nə bilirdin, Əli Kərimli? Deyəndə ki, Ə.Kərimli xəyanətkardır, satılıb-satandır, Vətən xainidir, şivən qoparırsan ki, “aydan arı, sudan durusan”. Ancaq neçə müddətdir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Ə.Kərimli ilə bağlı məhkəmə zamanı bir çox faktların üzə çıxması AXCP sədrinin xəyanətkar əməllərini üstündən qara pərdəni götürdü.***

Bu, dəfələrlə olub. Bu gün də məhkəmə zamanı şahid qismində dindirilənlərin verdikləri ifadələr bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini sübuta yetirməklə, 24 ildir ki, onun çirkin əməlləri, milli maraqlarımıza qarşı  etdiyi xəyanətlər üzə çıxmaqdadır. Eyni zamanda, vaxtilə onunla eyni “cəbhədə” olan şəxslərin açıqlamaları, aparılan araşdırmalar da, Ə.Kərimlinin xəyanətkar əməllərinin üstündəki o pərdələri götürərək, əsl həqiqətləri üzə çıxarmaqdadır.

## Növbəti düyün - Moskvadan hər ay “Milli Şura” və AXCP adlı qurumlara nə az, nə çox -  412 min dollar vəsait daxil olub

Keçirilən məhkəmə prosesində səslənən növbəti fakt isə, AXCP ilə “Milli Şura”nı bir-birinə qatdı. Bildirildi ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyadan hər ay AXCP-yə, müntəzəm olaraq, 30 min dollar pul gəlib. Vəziyyətin belə alınacağını görən Ə.Kərimli bunun hesabatını saxta şəkildə verərək, bildirib ki, guya hər ay Rusiyadan ona 500, bəzən 1000 dollar məbləğində dəstək gəlir. Düz 30 dəfə saxtakarlıq!

Həmçinin, məlum olub ki, Moskvadan hər ay “Milli Şura” və AXCP adlı qurumlara nə az, nə çox -  412 min dollar vəsait daxil olub.

Belə olan halda, saxtakar və satqın Ə.Kərimli, görəsən, hansı “üzlə” “müxalifətin lideri” olmaq istəyir?

Bu yerdə jurnalist Eynulla Fətullayevin Ə.Kərimlini quduz oğru itlərə bənzətməsi lap yerində deyilmiş ifakdədir.

## Eynulla Fətullayev: “Ə.Kərimli quduz oğru itlərdən də pisdir”

Jurnalist Eynulla Fətullayev özünün “facebook” hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda maraq doğuran iddia ilə çıxış edərək, bildirib ki, Ə.Kərimli və murdar cəbhənin digər virusları oğru itlərdir: “Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni-quduz itlər kimi gülləsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi...” E.Fətullayev, həmçinin,  bu gün Azərbaycan hakimiyyətinin iqilabi-sosial islahatları ilə bağlı sosial şəbəkələrdə böhtan xarakterli çıxışlarına da cavab verərək, bildirib ki, imkanım olsaydı, belə üfunət iyi verən Avropada “siyasi mühacir” adı altında sığınaraq it kimi həyat sürənləri birdəfəlik yer üzündən silərdim: “ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırış etməsi, əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıqdır. 24 il ərzində, dəyişməyən iyrənc alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən  tamamilə silmək lazımdır! Bu murdar kütləyə tarixdə 2-ci şans verilməməlidir. Vəhşi siyasi qüvvəni hakimiyyətə buraxmaq olmaz!!! Əgər siz düşünürsünüzsə ki, bunlar hamısıdır, bərk yanılırsınız. Hələ daha nələr var...”

Bu, həqiqətən də, belədir. Bu gün xarici ölkələrdə Azərbaycan əleyhinə “sapı özümüzdən olan baltalar”  Ə.Kərimlinin göstərişini yerinə yetirən törəmələridir. Bu törəmələr ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı satqınçılıq edən bu şərəfsizlər - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Sevinc Osmanqızı, Natiq Güləhmədoğlu, Fikrət Hüseynli, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli ünsür şərəfsizlər bilməlidirlər ki, istifadə olunub, yararsız halda zibilliyə atılırlar. İndi zibilliyə atılan bu əxlatsızlar qaşınmayan yerdən qan çıxarmaq üçün mitinq keçirməklə, guya xalqın “qayğılarını” nümayiş etdirmək istəyirlər. Ancaq bu, baş tutan iş deyil. Çünki sizin kimi satılıb-satanların qatarı çoxdan gedib. Xalq artıq sizin kimi şərəfsizləri çoxdan arxivin küncünə atıb. Əli Kərimli, Sevinc Osmanqızı, Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Natiq Güləhmədoğlu, Fikrət Hüseynli, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi parazitlər anlamalıdırlar ki, alət olunaraq istifadə müddətini çoxdan bitiriblər. Hay-küy salmağa isə, ehtiyac yoxdur və tarixin arxivində ləkəli adam kimi qalacaqlar.

***Rəfiqə HÜSEYNOVA***

# Məhbusdan “SƏS” Media Qrupuna şok müraciət

*Rauf Sultanov: “Artıq bir neçə dəfə mənim adımı öz siyahılarına salan Aslan İsmayılov və Xədicə İsmayıl, Əli Kərimli və Gültəkin Hacıbəylinin adamları məni çox pis vəziyyətdə qoyurlar”*



***“Səs” qəzetinin və eyniadlı İnformasiya Agentliyinin (SİA) redaksiyasına “watsapp” vasitəsi ilə audioyazı daxil olub. Audioyazının müəllifi Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsində məhkəmənin qərarı ilə həbs cəzası çəkən jurnalist Rauf Sultanovdur.***

Xatırladaq ki, eyni müraciət telefon zəngi vasitəsi ilə bu il aprelin 18-də də olmuşdu. Müraciətinin səbəblərini deyən R.Sultanov “amerikapress.com” saytının baş redaktoru, eləcə də, İşgəncələrə qarşı Azərbaycan Komitəsinin sədr müavini olduğunu bildirmişdi. Həmin informasiyanı bu linkdən oxuya bilərsiniz:

http://sia.az/az/news/politics/735526.html

Qeyd edək ki, Rauf Sultanov 2017-ci ilin dekabr ayında Cinayət Məcəlləsinin 311.3.4 (rüşvətalma) maddəsi ilə həbs cəzası alsa da, sonradan Bakı Ağır Cinayətlər Məhkəməsində cəzası 182.1 maddəsi ilə yüngülləşdirilib. Hətta bu maddədə zərərçəkən şəxs iş üzrə tanınmayıb. Bu baxımdan, onun azadlığa çıxmaq şansı və ümidləri daha da artıb. Şikayətçi bildirib ki, onun həm də birinci qrup əlillik dərəcəsi var.

Lakin şikayətinin məğzinə gəldikdə isə, onun ifadələri, həqiqətən də, şok effekti yaradıb. Belə ki, şikayətçinin dediyinə görə, onun ailəsi hər zaman dövlətə və dövlətçiliyə sadiq olub və heç vaxt milli maraqlar əleyhinə hər hansı bir siyasi fəaliyyət göstərməyib. O cümlədən, bacısı Aynur Sultan Gülişiq ABŞ-ın Çikaqo ştatında yaşayır, Azərbaycanın milli-dövlətçilik maraqlarından çıxış edən Amerikanın Orta Qərb Ştatlarının Azərbaycan Mərkəzinin aparıcı üzvlərindən biridir.

Məhbus çıxışı əsnasında qeyd edib ki, onun özünün xəbəri olmadan, özlərini “hüquq müdafiəçiləri” adlandıran Aslan İsmayılov və Xədicə İsmayıl ilə yanaşı, eyni zamanda, AXCP sədri Əli Kərimlinin və “Milli Şura”nın Koordinasiya Şurasının üzvü Gültəkin Hacıbəylinin, həmçinin, onlar tərəfindən yönləndirilmiş şəxslərin hədəfindədir.  Daha dəqiq desək, bu şəxslər R.Sultanovun adından sui-istifadə edərək, Qərbin müxtəlif insan haqlarının müdafiəsi təşkilatlarına onun “vicdan məhbusu” olması barədə məktublar göndərir, bu vasitələrlə “vicdan məhbusu” siyahısına daxil edib, qrantlar qazanmağa cəhd göstərirlər. “Artıq bir neçə dəfə mənim adımı öz siyahılarına salan Aslan İsmayılov və Xədicə İsmayıl, Ə.Kərimlinin və Gültəkin Hacıbəylinin adamları məni çox pis vəziyyətdə qoyurlar” deyən şikayətçiyə görə, onun heç zaman siyasi cəhətdən anti-dövlətçi, yaxud digər fəaliyyəti olmayıb: “Sadəcə, media adamı olduğuma görə, bu adımdan öz səmərələri üçün istifadə etməyə çalışırlar. Xahiş edirəm, mənim bu şikayətimi ictimailəşdirin və hər kəs bilsin ki, mən heç yerə heç bir məktub yazmamışam, müraciət etməmişəm. Aslan İsmayılov və Xədicə İsmayıl məni öz çirkin oyunlarına qatırlar, mən bu oyunlarda iştirak etməyi, birmənalı olaraq, rədd etmişəm, bundan sonra da edəcəyəm!” deyə əvvəlki müraciətində R.Sultanov bildirmişdi.

O, bu kimi məsələlərdə tək olmadığını, adlarını çəkdiyi “hüquq müdafiəçilərinin” cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların ailələri ilə görüşərək, onlardan pul aldıqlarını, bu vasitə ilə həmin insanların adlarını saxta siyahılara yazdıqlarını bildirib.

Həmçinin, onu da qeyd edib ki, onun həbsxanada heç bir problemi yoxdur, müalicə alır, qidalanması yüksək səviyyədə təmin edilir, habelə, həbsxana rəhbərliyi ilə münasibəti çox yaxşıdır.

Qeyd edək ki, bu məsələni daha dərindən araşdıraraq, ictimaiyyətə təqdim edəcəyik. Belə ki, R.Sultanov 2-ci audioyazısını da redaksiyamıza təqdim edəcək. Bu istiqamətdə araşdırmamız davam edir.

***RÖVŞƏN RƏSULOV***

# Gürcüstan parlamentində deputatlar arasında dava olub



Gürcüstan parlamentinin iyunun 25-də keçirilən iclasında deputatlar arasında dava olub. Müxalif “Avropalı Gürcüstan” və “Vahid Milli Hərəkat” partiyalarının deputatları Daxili İşlər naziri Giorgi Qaxariyanın istefası da daxil olmaqla beş gündür davam edən etiraz aksiyalarında irəli sürülən tələblərinin müzakirə olunmasını təklif ediblər.

Lakin hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının nümayəndələri müxalifətin bu təşəbbüsünə etiraz edib və nəticədə deputatlar arasında mübahisə baş verib. Mübahisə deputatların biri-birilərini təhqir etməsinə və güc tətbiqinə çevrilib. Birinci vitse-spiker Tamar Çuqoşvili məcburən texniki fasilə elan edib.



# Türkiyə gələn aydan S-400 zenit-raket komplekslərinin qəbuluna başlayır

Rusiyadan satın alınan S-400 zenit-raket komplekslərinin Türkiyəyə çatdırılması cari ilin iyulunda başlayacaq.  Türkiyənin NTV telekanalı xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxışı zamanı deyib. “Gələn aydan etibarən S-400 komplekslərinin qəbuluna başlayırıq. Zenit-raket komplekslərinin alınması bizim suveren hüququmuzdur və buna görə də biz güzəştə getməyəcəyik”, - deyə Ərdoğan bildirib.

Xatırladaq ki, Türkiyə və Rusiya S-400 “Triumf” zenit-raket komplekslərinə dair kredit sazişi 2017-ci ilin dekabrında imzalayıb. Sazişə əsasən, Ankara iki zenit-raket batareyası alacaq. Tərəflər, həmçinin S-400 kompleksinin Türkiyədə istehsalı üçün texnoloji əməkdaşlıq barədə razılığa gəlib. Ankaranın bu addımı ABŞ və NATO-nun ciddi narazılığına səbəb olub. Birləşmiş Ştatlar S-400 “Triumf” zenit-raket komplekslərini alacağı təqdirdə Ankaranı beşinci nəsil F-35 qırıcı-bombardmançı təyyarələrinin çatdırılması proqramından tamamilə çıxarmaqla hədələyib. Türkiyə ən azı 100 ədəd “F-35 Lightning II” təyyarəsi almaq niyyətindədir. Sövdələşmə ABŞ-ın himayəsi altında hazırlanan və Ankaranın 2002-ci ildə qoşulduğu proqram çərçivəsində həyata keçirilir.

Uzaq məsafəli zenit raket sistemi - S-400 “Triumf” 2007-ci ildə Rusiyada silahlanmaya qəbul olunub. O, aviasiya vasitələrini, qanadlı raketləri, o cümlədən orta təsir radiuslu ballistik raketləri, həmçinin yerüstü obyektləri məhv etmək üçün nəzərdə tutulur.

# SSRİ-də 20-40-cı illərdə erkən nikah problemi

***Bolşevik ideoloqlar təhlükəni anlayaraq, siyasəti bir qədər yumşaltmış və maarifçilik yoluyla bu siyasəti davam etdirməyi qərara almışlar. Lakin çadranı atmaq istəyən qadıların sayı artırdı. 1930-cu ildə Bakıda Ə.Bayramov adına klubun tikiş fabrikinin işçisi Səriyyə Xəlilova çadranı ataraq, fabrikə işləməyə getdiyi üçün, atasının əli ilə öldürülmüşdü. Bu hadisə, ölkədə qadınların kütləvi mitinqinə səbəb oldu. Əslində, bu hadisə, qadınlara qarşı zorakılıq edən kişilərə qarşı müəyyən tədbirlərin görülməsinə və çadraya qarşı hərəkatın genişlənməsinə şərait yaratdı. Rəhbərlik 1930-cu ildə qadınların öldürülməsini əksinqilabi akta bərabər tutulan qərar çıxardı.***

Rauf Məmmədov yazır: "C.Cabbarlının "Sevil" əsəri yeni sosialist cəmiyyətin qadın modelini Sevil obrazında ifadə edirdi. Bu əsər, teatrın repertuarından düşmürdü, hətta bu mövzuda film də çəkilirdi. Lakin bunlara baxmayaraq, Azərbaycanda çadranı atan bir çox qadınlar yaxınları tərəfindən qətlə yetrilir və zorakılıqlara məruz qalırdılar. Çünki əhalidə əsrlərlə formalaşan patriarxal düşüncə sürətlə baş verən sosial dəyişiklikləri qəbul etmək iqtidarında deyildi. Cəmiyyətdə baş verən hadisələr, onlarda şok effekti yaradırdı. Bunu qəbul edə bilməyənlər isə, dövrə uyğunlaşmaq istəyən qadınlara qarşı zorakılıq edir, onları öldürür və ya ən yaxşı halda, onları boşayırdılar.

Feminizasiya proseslərinin əsas mərkəzi Bakı şəhəri idi. Bakı, beynəlmiləl şəhər olduğu üçün, burada islahatların aparılması daha rahat idi. 1925-ci ildə Bakıda rus əhalisi 159491, müsəlmanlar 138265, ermənilər 78763 nəfər təşkil edirdilər. Bu dövrdə Azərbaycan əhalisinin və müsəlmanların əksər hissəsi kəndlərdə yaşayırdılar. Çünki bu dövrdə sənayeləşmə prosesi zəif inkişaf etmişdi.

20-30-cu illərin dərin iqtisadi böhranı insanların kütləvi şəkildə aclıq və xəstəliklərdən məhv olmalarına şərait yaratmışdı. Rusiyada bu, özünü daha faciəvi şəkildə büruzə verirdi. Azərbaycanda 1920-1922-ci illərdə əhalinin sayı azalmış (xüsusilə, kəndlərdə), 30-cu illərdə isə sürətlə artmışdı. O dövrdə, qadın və kişilər arasında gender balansının normal olduğu müşahidə olunur.

Sənayenin inkişafı, Azərbaycanın aqrar ölkədən tədricən sənaye ölkəsinə çevrilməsinə, müasir kapitalist Bakı şəhərinin inkişaf etməsinə, urbanizasiya proseslərinin güclənməsi nəticəsində, əhalinin kəndlərdən şəhərlərə axışmasına və şəhərlərdə sürətli sosializm quruculuğu prosesinin təsiri altında ənənəvi dəyərlərin tədricən ortadan qalxmasına səbəb oldu. Kəndlərdən şəhərlərə işləməyə gələn insanlar, artıq yeni mühitə uyğun olaraq, nuklear monoqam ailə modelinə keçdilər. Bu prosesin tədricən sosializm quruculuğu kimi bütün ərazilərə yayılması və gənclərin şəhərlərə meyil etməsi nəticəsində ənənəvi patriarxal, mürəkkəb və böyük ailə strukturu çökdü və onun üzərində formalaşan gender stereotipləri tədricən (xüsusilə, şəhərlərdə) iflasa uğradı. Çünki bu ailələrin təməlini təşkil edən kollektiv feodal təsərrüfatı ortadan qalxdı."

Ənənəvi kollektivçilik, cəmiyyətin istismar olunmasına mane olurdu. İqtisadi inkişafın əsasında dayanan sosializm kollektivçiliyi, feodal kollektivizmindən fərqli olaraq, əmək kollektivizmi və ya dövlət kapitalizmi idi (P.Frani, E.Memdel, Q.Dreype, B.Rissi). Burada da, fərqli insanların həyatı sosializm yarışmaları ilə kollektiv sosializm yarışmaları ilə kollektiv bir sosialist ailə modelinə çevrilirdi. Hər iki halda, insan yaşamaq üçün işləmirdi, işləmək üçün yaşayırdı. C.Cabbarlının "Sevil" əsəri, bu keçid mərhələsini aydın şəkildə əks etdirir.

R.Məmmədovun fikrincə, 20-30-ci illərdə Azərbaycanda baş verənlər böyük feminist inqilab idi. Bu inqilabi həyata keçirən bolşeviklərin əksəriyyəti feminist ideologiyasının daşıyıcıları idilər. Lakin onlar Rusiyada və digər xristian torpaqlarında etdikləri "seksual inqilabı" Azərbaycanda və digər müsəlman torpaqlarında həyata keçirə bilmədilər. Başladıqları işlərin yarımçıq qalmasından qorxduqları üçün, onlar ehtiyatlı hərəkət etdilər və müsəlman ölkələrində "seksual inqilab" layihəsini müvəqqəti olaraq təxirə saldılar. Əvəzində, onlar islam dininin dəyərlərini ortadan qaldırmaq, qadınları çadradan çıxarmaq və onları ailədən ayıraraq, istehsala cəlb etmək məqsədini qarşıya qoydular. Stalin 1929-cu ildə öz rəqiblərinə (Trotski, Zinovyev, Kamenski) qalib gələrək, hakimiyyəti ələ keçirdi və rəqiblərindən tədricən fərqli siyasət həyata keçirməyə başladı. Rəqiblərinin ona mane olacağını bilərək, onları və onların birbaşa, dolayı təsiri altında olan qrupları ortadan qaldırmaq qərarına gəldi. Heç bir qruplaşmada olmayan minlərlə günahsız insanlar daxili siyasi çəkişmələrin qurbanına çevrildilər. Bu hadisə tarixə repressiyalar dövrü kimi düşdü.

Repressiyalardövründə"SSRİdəqadınməsələsihəll olunmuşdur" rəsmi tezisi əvvəlki feminist proseslərin qarşısına sədd çəkdi. Əvvəllər mövcud olan qadın təşkilatları ləğv olundu və bir çox üzvləri həbs edildi. Yeni yaradılan qadın təşkilatları isə, dövlətin yeni gender siyasətinin təmsilçilərinə çevrildilər. Bu dövrdə yaranan "İctimaiyyətçi qadınlar hərəkatı"nın liderləri (əsasən, məmurların həyat yoldaşları) qadını ərinin, ailəsinin və dövlətin dayağı kimi müdafiə etdi və dövlətin nəzarəti altında patriarxal siyasətin həyata keçirilməsinə xidmət etdi. Çünki bu siyasət totalitar dövlətin təməlinin güclənməsinə şərait yaradırdı.

1929-cu ildə İ.Stalinin hakimiyyətə gəlməsi ilə bu siyasətə son qoyuldu. Artıq 30-cu illərdən başlayaraq, İ.Stalinin hakimiyyəti bu özbaşınalığın qarşısının alınması prosesinə başladı. Çünki totalitar dövlətin qurulması üçün patriarxal ənənələrə dayanan ənənəvi ailəni bərpa etmək lazım gələcəkdi.

1934-cü ildə homoseksual əlaqələri qadağan edən cinayət qanunu qəbul edildi. 1935-ci ildə SSRİ-də kontraseptiv vasitələrin istehsalı və onların istifadəsi dayandırıldı. 1936-cı ildə boşanmalara məhdudiyyət qoyan qanunlar çıxarıldı (1944-cü ildə boşanmalar məhkəmələrə həvalə edildi), abortlar qadağan olundu. Çünki kontraseptiv vasitələr, abortlar və boşanmalar SSRİ-də təbii artıma mənfi təsir göstərmişdi. Bu tədbirlər nəticəsində, abortlar və boşanmaların səviyyəsi sürətlə aşağı düşdü.

Bu dövrdə SSRİ ərazisində repressiyalara başlanıldı. 1938-ci ildə "Azərbaycan qadını" (əvvəlki "Şərq qadını") jurnalının bir çox müxbir və yazı müəllifləri həbs olundular. Bundan başqa, bir çox fəallar istintaqa cəlb olundu.

R.Məmmədov yazır: "Görünür, SSRİ hökuməti 1933-cü ildə Almaniyada hakimiyyətə gələn faşist rejiminin qarşıdakı müharibə təhlükəsini anlamış və əhalinin artımı istiqamətində tədbirlərin görülməsini vacib bilmişdir. Dövləti möhkəmləndirmək üçün, 20-30-cu illərin rüsvayçılığına son qoymaq lazım gəlirdi. II Dünya Müharibəsi ərəfəsində həlak olanların yerini doldurmaq üçün, nikahların artırılması və boşanmaların çətinləşdirilməsi istiqamətində 1944-cü ildə yeni qanunlar və xüsusi komissiyalar yaradıldı. Bununla yanaşı, müharibə ərəfəsində və sonra, nikahdankənar uşaqların doğulmalarına şərait yaradıldı. Həmin uşaqlar anaların və qismən dövlətin öhdəliyinə götürüldü.

II Dünya Müharibəsi dövründə qadınlar arxa cəbhədə, yəni ölkə təsərrüfat həyatının bütün ağır sahələrində gücləndirilmiş iş rejimində işləməyə başladılar. Bu dövrdə, cəmiyyətin sosial-iqtisadi həyatının idarə olunması və mövcud olması qadınların üzərinə düşdü. Qadınlar döyüşdə olan həyat yoldaşlarının yerinə işləyib, öz uşaqlarına təkbaşına tərbiyə verdilər. Müharibədən sonra kişilərin sayı xeyli azaldığı üçün, bir çox ailələr atasız, yəni anaların himayəsi altında böyüdü. Bu isə, atasız böyüyən və ana tərbiyəsi altında formalaşan bir nəslin meydana çıxmasına səbəb oldu. Artıq bu nəsil, qadını həm ailə başçısı, həm də sosial statusa malik bir şəxsiyyət kimi tanıdı. Bu isə, cəmiyyətdə patriarxal ənənələrin qırılmasına və cəmiyyətdə feminləşmə prosesinin başlamasına təkan verdi."

Təkcə 1941-ci ildə Azərbaycanın neft hasilatı və neft emalı sənayesi müəssisələri fəhlələrinin üçdə biri cəbhəyə getmişdi. Maşınqayırma, dəmiryol, su nəqliyyatı, kolxoz və sovxozlarda da vəziyyət belə idi. Sonrakı illərdə cəbhəyə gedənlərin sayı daha da artdı. Bu durum qadınların kütləvi şəkildə kişi işlərinə cəlb olunmalarına şərait yaratdı. 1942-cı ildə 16 min cəbhəçinin həyat yoldaşı sənaye müəssisələrində, onlardan 11 min nəfəri neft sənayesində işləyirdi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan əhalisi 1940-cı ildə 3.3041 min nəfər idi. 1945-ci ildə onun sayı 17,65 faiz azalmışdı. Müharibədən sonrakı illərdə Azərbaycan SSR-də əhalı zəif artırdı. 1950-ci ildə respublikada 2.859 min nəfər yaşayırdı, bu da 1940-cı ildəkind.n 415 min nəfər az idi. Azərbaycan əhalisindən yüz minlərlə döyüşçü, müharibədən sonrakı ilk ağır illərin iqtisadi, sosial və mənəvi çətinlikləri üzündən çoxlu insan dünyasını dəyişmişdi. 50-ci illərdə Azərbaycanda əhalinin sayı 3.816 min, 1970-ci ildə isə, artıq 5.117 min nəfərə çatdı.

Azərbaycanlıların sayı 2.494,4 mindən 3.776,8 minə yüksəldi. 1959-cu ildə əhalinin 48%-ni kişilər, 52%-ni qadınlar təşkil edirdisə, 1970-ci ildə bu göstəricilər kişilərin xeyrinə 1% dəyişmişdi. Əhalinin tərkibindəki sosial dəyişikliklərin mühüm meyillərindən biri şəhər əhalisinin sürətlə artımı olmuşdu. 1950-ci ildə əhalinin 44%-i, 1970-ci ildə isə, artıq 50%-i şəhərlərdə məskunlaşmışdı.

Müharibədən sonra 50-ci illərdə Qərb ölkələrində kontraseptiv vasitələrin meydana çıxması ilə "azad sevgi" dalğası genişləndi. Yeni yaranan "xippi" hərəkatı bu dalğanın avanqardına çevrildi. Yəni 30-40 il əvvəl, SSRİ-də baş qaldıran dalğa Qərbdə özünə yol açdı.

Maraqlıdır ki, bu proseslərin baş verdiyi bir ərəfədə, SSRİ özünün iqtisadi inkişafının ən yüksək dövrünü yaşamış (1945-1960) və boşanmaların sayı kəskin şəkildə aşağı düşmüşdü. Müharibədən sonra kişilərin sayının qadınlara nisbətdə xeyli aşağı düşməsi, boşanmaların azalmasına təsir edən əsas amillərdən biri ola bilərdi.

R.Məmmədov qeyd edir ki, İ.Stalinin ailə siyasətini, Qədim Roma imperatoru Oktavian Avqustun ailə siyasəti ilə, həmçinin, həmin dövrün sosial-mədəni durumu ilə müqayisə edə bilərik. Oktavian Avqust kimi, İ.Stalin də dağılan ailə qurumunu bərpa etmək və onu nəzarət altına almaq üçün, ailəni dövlətin himayəsi altına aldı. Dövlət total patriarxlığın təmsilçisi oldu. İ.Stalinin "şəxsiyyətə pərəstiş" kultu ilə, Oktavian Avqustun özünü Tanrı elan etməsi arasında oxşarlıq vardı. Hər iki lider, qadınların patriarxal rejimə itaətkarlığı üzərində totalitar rejimi qurdu. Qədim Roma ilə SSRİ arasında olan paralellər, belə deməyə əsas verir ki, Stalin SSRİ-ni Qədim Romanın varisi kimi görürdü.

Bu paralellər, bir daha təsdiq edir ki, totalitar rejimlər qadını ya patriarxal ailənin, ya da birbaşa patriarxal dövlətin diktəsi altına alaraq, öz idarəetmə rejimlərini qururlar. Eyni zamanda, qadının istismarı üzərində bərqərar olan bu cür totalitar sistemlər, qadınların inqilabı ilə ortadan qaldırırdılar (Romanı ilk xristianların, cahiliyyə sistemini ilk müsəlmanların, Çar Rusiyasını solçu feministlərin yıxdığı kimi). Bu mexanizm, müəyyən sosial qruplar tərəfindən idarə olunsa da, onu, bir tarixi sosiofiziki qanunauyğunluq kimi də dəyərləndirmək olar.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 26 iyun



## YAP Balakən rayon təşkilatı 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününü qeyd edib

Dünən Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatında 26 iyun Azərbaycan Respublikası Silahli Qüvvələr Günü münasibəti ilə tədbir keçirilib. Tədbirdə müstəqil Azərbaycanın Ordusu, onun yaranma tarixi və Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda rəhbərliyə gəldikdən sonra ordunun formalaşmasından söhbət açılıb.

Tədbirdə çıxış edən YAP Balakən rayon təşkilatının sədri Azad Balayev ordumuzun yaranma tarixindən danışaraq, bildirib ki, müstəqil dövlətin güclü ordusu olmalıdır: "Hələ Azərbaycana birinci rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasət yeridərək, azərbaycanlı tələbələrin Rusiyanın ayrı-ayrı hərbi məktəblərinə təhsil almağa göndərməsi Azərbaycanda Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbin yaradılması müstəqil Azərbaycan Ordusunun formalaşdırılmasına nail olmuşdur".

Tədbirdə çıxış edən Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xəlifə Mirəliyev, YAP Balakən rayon təşkilatının gənclər birliyinin sədri Nurlan Şibliyev, Şəki Regional Turizm İdarəsinin Balakən rayonu üzrə baş məsləhətçisi Şəfəq Hacıyeva, Balakən Gənclər Evinin direktoru Taleh Şahverdiyev və başqaları ordumuzun yaranma tarixindən danışıb, Ulu Öndərin Silahlı Qüvvələrin yenidən qurulması üçün atdığı önəmli addımları diqqətə çatdırıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu gün də ordumuzun gündən-günə qüdrətinin artması vurğulanıb.

***R.HÜSEYNOVA***

## ELAN

"F.S" ASC 09 avqust 2019-cu il tarixində saat 11:00-da Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 1999-cu məhəllə ünvanında "F.S" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağının (illik ümumi yığıncaq) keçiriləcəyini elan edir. Gündəlikdə duran məsələlər:

1. "F.S" ASC-nin 2018-ci il üçün maliyyə hesabatının dinlənilməsi və müzakirəsi.
2. "F.S" ASC-nin 2017 və 2018-ci illər ərzində fəaliyyəti nəticəsində əldə edilmiş dividendlərin səhmdarlar arasında bölünməsi.
3. "F.S" ASC-nin İdarə Heyətinin Sədri və üzvlərinin seçilməsi.
4. İbrahimov Oktay Vəli oğlunun "F.S" ASC-yə qarşı qaldırıldığı iddia ilə bağlı İbrahimov Oktay Vəli oğlunun İdarə Heyətinin Sədri kimi "F.S" ASC-ni təmsil etmək səlahiyyətinin məhdudlaşdırılması, qeyd edilən məhkəmə mübahisəsi ilə bağlı bütün məhkəmə instansiyalarında "F.S" ASC-ni təmsil edəcək nümayəndə və vəkilin təyin edilməsi və onunla müqaviləni bağlayacaq səlahiyyətli şəxsin təyin edilməsi.

***Əlaqə telefonu: (050) 221-35-00***

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə I kurs magistri Əhmədova Telli Əbülfəz qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Əhmədov Qədir Fərəc oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Başsağlığı

Yusif Rəhimov, Ələddin Cabbarov və Sevdiyar Əliyev Respublika Səhiyyə Nazirliyinin maliyyə idarəsinin rəisi Azad Vəliyevə atası

**Nəriman Vəliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

## YAP Qobustan rayon təşkilatında "Nəsimi İli" ilə bağlı tədbir keçirilib

***Dünən YAP Qobustan rayon təşkilatı tərəfindən rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında Azərbaycanın mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib. Tədbiri giriş sözü ilə YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev açaraq, xatırladıb ki, Prezident İlham Əliyevin Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il " Nəsimi İli " elan edilib: "Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Ölkə ictimaiyyəti "Nəsimi İli" çərçivəsində milli-mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır".***





F.Gülaliyev bildirib ki, YAP Qobustan rayon təşkilatı tərəfindən keçirilən müsabiqədə ümumtəhsil məktəblərinin şagirdləri iştirak edib. Səsləndirilən əsərlərdə İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğu bir daha öz ifadəsini tapıb. İmadəddin Nəsiminin ana dilli şeirin humanist ideyalarla, yeni məzmun və bədii lövhələrlə daha da zənginləşməsində misilsiz xidmətləri var.

Tədbirdə məlumat verilib ki, rayonun 18 ümumtəhsil məktəbində 23 istedadlı şagird müsabiqənin birinci mərhələsində iştirak etmişdir. Onlardan 7 nəfəri final mərhələsində iştirak etmək hüququ qazanmışdır. Final mərhələsində Qobustan şəhər 2 saylı tam orta məktəbinin XI sinif şagirdi Mirzəliyeva Zemfira I yer, Qobustan şəhər 1 saylı tam orta məktəbinin X sinif şagirdi Abdullayev Allahverən II-yerə, Qobustan şəhər 2 saylı tam orta məktəbinin XI şagirdi Həmidova Nahidə III yerə layiq görülüblər. Onlar Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar. Qaliblər YAP Qobustan rayon təşkilatı tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***RƏFİQƏ***

## "Nar" 4G istifadəçilərinin sayı 700 minə çatıb

***Ölkənin ən geniş 4G şəbəkələrindən birinə malik olan "Nar"-ın 4G istifadəçilərinin sayı sürətlə artmaqdadır. Son 1 il ərzində "Nar" 4G internetindən istifadə edənlərin sayı 2 dəfə artaraq 700 minə çatıb. Mobil operatorun 4G istifadəçilərinin sayının artmasına ölkə arazisində yeni baza stansiyalarının quraşdırılması, "Nar"-ın təqdim etdiyi paketlər və tariflər, eləcədə 4G smartfon penetrasiyasının artımı təsir edib. Qeyd edək ki, son 1 il ərzində "Nar"-ın smartfon istifadəçilərinin sayı 23% artıb.***

"Nar" yüksəkkeyfiyyətli 4G xidmətini paytaxtla yanaşı, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim etməkdədir. "Nar" 4G istifadəçilərinin 71%-i paytaxt Bakının, 29%-i isə regionların payına düşür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 4G internetindən istifadə edənlərin sayı Bakıda 91%, regionlarda isə 120% artıb. Ümumilikdə, "Nar" abunəçilərinin 25%-i yüksəksürətli 4G internetinin istifadəçisidir. Hazırda "Nar" istifadəçilərinin sayı 2,3 milyonu ötüb.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə abunəçilərə yüksəkkeyfiyyətli xidmət göstərir.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600